Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

18 İYUL 2019-cu il

№ 126 (4024)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur


# BAKI VƏ TİFLİSƏ QARŞI MƏKRLİ PLAN...

■ səh. 5 ■

Sərhədlərimizdə gürcülərin əli ilə törədilmiş insidentlərdə erməni barmağı - Azərbaycanı yeni münaqişəyə çəkənlərin məqsədi...

■ səh. 2 ■

Rusiya sanksiyalara görə Avropa Birliyini pislədi, Türkiyənin də doğru yol tutmadığını dedi

■ səh. 3 ■

Bəzən müxtəlif ölkələrdən geri qaytarılan aqrar məhsullarımızın son taleyi necə olur...

■ səh. 11 ■

Məktəb uşaqlarını imtahanlarda belə görmüşdük, indi təhsilli müəllimlər imtahana "gizli köməkçilərlə" gəlir...

■ səh. 12 ■

"Moyka"larda işləyənlərin müştəri avtomobili qaçırması hallarına xeyli vaxt idi rast gəlinmirdi...

■ səh. 13 ■

Şəhərətrafı yollarda "piyada zebraları" bərbad günə düşüb...

■ səh. 15 ■

At izi it izinə qarışıb - Bakıda oğlan uşaqları qadın gözəllik salonlarında işləyir, oğlan uşaqları makiyaj edilir...

■ səh. 13 ■



■ səh. 7 ■

## Ermənistan rəsmiləri İrəvan-Vaşinqton yolunda qalıb, İran qonşusunun xəyanətindən narahatdır...





Türkiyə-Rusiya sövdələşməsinin Qarabağ proseslərinə təsiri Ermənistanda şok effekti yaradır

■ səh. 6 ■

Avrokomissiyanın sədri postunda tarixdə ilk qadın - milliyyətcə alman, peşəsi ginekoloq, siyasi baxışlarına görə qatı avropaçı...

■ səh. 4 ■

Sevan üzərində qurulmuş «Qərbdən pul qoparma oyunu» Ermənistanın öz əleyhinə işlədi...

■ səh. 9 ■

■ səh. 8-9 ■

"Dəfn etdiyi "Turan" agentliyi onun son qəmi olsun"!



■ səh. 3 ■

Gürcüstan - Azərbaycan münasibətləri geosiyasi güc mərkəzlərinin "razborkasında" - iki ölkədə hakimiyyətə can atan qüvvələr...



■ səh. 10 ■

Polis veteranları cinayətlərin açılması prosesinə necə qoşulur...



■ səh. 10 ■

BDU rektorunun universitetlərarası piar rəqabəti təklifinə qarşı çıxanlar nə demək istəyir...



■ səh. 11 ■

Nazirlik rəsmisinin qarpızın qiyməti ilə bağlı dediyi rəqəm çox mübahisəli qarşılandı...



# Sərhədlərimizdə gürcülərin əli ilə törədilmiş insidentlərdə erməni barmağı - Azərbaycanı yeni münaqişəyə çəkənlərin məqsədi...

**Son zamanlar "Keşikçidağ" məbədi və yaxud da "David Qareci" məbəd kompleksi ilə bağlı olaylar xüsusi diqqət mərkəzində yer almağa başlayıb. Azərbaycan bu məsələni sakit və danışıqlar yolu ilə həll etməyə çalışsa da, gürcü tərəfində proseslərlə bağlı birmənalı mövqe müşahidə olunmur.**



Məsələ burasındadır ki, bir hissəsi Azərbaycanın Ağstafa rayonu, digər hissəsi isə Gürcüstanın Saqareco rayonu ərazisində yerləşən "Keşikçidağ" məbədi barədə qonşu ölkədə bir-birinə zidd olan müxtəlif fikirlər yayılır. Burada bəzi siyasətçilər məbəd kompleksinin məhz Gürcüstana məxsus olması barədə fikirlər səsləndirir, əhalini də buna inandırmağa çalışırlar. Lakin sağlam düşüncəli siyasətçilər bunun əksini sübut etməklə yanaşı, əhalini sabitliyə və Azərbaycan-Gürcüstan dostluq münasibətlərinə zərər vurmamağa dəvət edirlər. Ancaq hiss edilir ki, proseslərin qızışmasında maraqlı olan üçüncü qüvvə də var. Hər iki ölkə rəsmilərinin verdiyi açıqlamalardan görünür ki, rəsmi dairələr münasibətlərin gərginləşməsində maraqlı deyillər. Bəllidir ki, yaranmış vəziyyət daha çox ermənilərin xeyrinə işləyir. Onlar maksimum dərəcədə iki ölkə arasındakı münasibətlərin öz məcrasından çıxmasına can atırlar. Ermənilərin Gürcüstan daxilində separatçı meylləri açıq büruzə verməsi, hətta həmin ölkənin təhlükəsizliyi üçün vurduğu ziyanlar göz qabağındadır. Təsadüfi deyil ki, bu yaxınlarda Tidflisdə baş qaldıran sərt anti-Rusiya aksiyalarının təşkilində erməni millətindən olan şəxslərin adı keçirdi. Bunu Gürcüstanın rəsmi dairələri də etiraf etdi. Bu baxımdan, "Keşikçidağ" məbədi ətrafında baş verən hadisələrdə erməni barmağının olmasını nə dərəcədə mümkün saymaq olar?

***Arzu Nağıyev:** "Ermənilər bundan bir vasitə kimi istifadə edərək iki xalq arasında nifaq salmağa çalışırlar"*

Təhlükəsizlik məsələləri üzrə ekspert Arzu Nağıyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, iki ölkə arasında sərhədlərin delimitasiya və demarkasiyası prosesi tam bitənə qədər belə təxribatlar törənəcək: "Sərhədin böyük bir hissəsində bu proses başa çatıb. Hələlik həllini tapmayan hissələrdən biri məhz "Keşikçidağ" ərazisidir. Bu istiqamətdə ortaq komissiya işləyir, yaxın vaxtlarda məsələ öz həllini tapacaq. Bəli, razıyam ki, bu vəziyyətdən istifadə edən bir çox qüvvə var. Hətta Gürcüstanın özündəki siyasilər belə qəbul edirlər ki, bu təxribatların arxasında bir sıra xarici xüsusi xidmət orqanları və Ermənistanın fəaliyyəti dayanır. Bu məsələdə qızışdırıcı mövqe tutan qüvvə əsasən Leyboristlər Partiyasıdır. Həmin partiyanın liderini gürcülərin özləri belə təxribatçı adlandırırlar. Gürcüstanın daxili rəyində həmin partiyanı Rusiya və Ermənistanın təsiri altında olduğu bildirilir. Bizim dövlət qurumları səviyyəsində proseslərə lazımi müdaxilə olundu. Əsas məqsəd odur ki, ermənilər bundan bir vasitə kimi istifadə edərək iki xalq arasında nifaq salmağa çalışırlar. Eyni zamanda, çalışılır ki, Cənubi Qafqazda başqa bir münaqişə ocağı yaradılsın. Ancaq Gürcüstan rəsmiləri də nəzərə almalıdırlar ki, həmin ərazilərdə etnik azərbaycanlılar yaşayırlar. Onlar təxribata çəkilsə, bu, Gürcüstanın daxili təhlükəsizliyi üçün yaxşı nəsə vəd etməyəcək. Vəziyyətlə bağlı bizim sərhədçilərimiz çox doğru mövqe tutdular, təxribata getmədilər. Orada bir atəş açılsaydı, bu, bütün dünyaya yayılacaqdı ki, sərhəddə atışma var. Bunu da əlində bayraq edən bəzi qüvvələr başqa provokasiyalara əl atacaqdılar. Hesab edirəm ki, ermənilər və başqa məkrli qüvvələr bu istəklərinə nail ola bilməyəcəklər. Çünki ölkələrimiz arasında strateji partnyorluq əlaqələri var və inkişaf edir. Gürcüstanın rəsmi qurumları belə, Azərbaycanın təmkinli davranışını alqışlayırlar. Sizi əmin edirəm ki, yaxın zamanlarda narazılıq tam aradan qaldırılacaq".

***Məhəmmədəli QƏRİBLİ***

# Rusiya Türkiyəyə qırıcı təyyarələr də verəcək...



**S-400 raketdən müdafiə sistemlərinin ilk partiyasını Türkiyəyə təslim edən Rusiya Ankaraya Qərbdə narahatlıqla qarşılanacaq yeni təklif verib.**

Baki-xeber.com xəbər verir ki, Rusiya Türkiyəyə bu dəfə də öz istehsalı olan döyüş təyyarələri təklif edib.

Bu barədə Rusiya Baş nazirinin köməkçisi Yuri Borisov, Türkiyəyə rus istehsalı döyüş təyyarələrinin tədarük edilməsini ehtiva edən bir razılaşma üçün danışıqların mümkün olduğunu deyib.

"Niyə olmasın? Artıq əlimizdə bunun mümkün olduğunu göstərən nümunə var" - Borisov deyib.

Qeyd edək ki, ABŞ Prezidenti Donald Tramp ölkəsinin Rusiyadan S-400 sistemi aldığı üçün Türkiyəyə F-35 satmayacağını bəyan edib.

Barak Obama dövründə Türkiyəyə "Patriot" satılmamasına görə əvvəlki hakimiyyəti tənqid edən Tramp Türkiyənin buna görə Rusiyadan S-400 aldığını deyib. Türkiyənin hazırkı vəziyyətini anladığını deyən Tramp bildirib: "Türkiyə çox çətin vəziyyətdir və biz də ABŞ olaraq çətin vəziyyətdə qaldıq. Ancaq bunu deyim - ABŞ Rusiyadan raket sistemi aldığı üçün NATO müttəfiqi Türkiyəyə F-35 döyüş təyyarələrini satmayacaq. Çox çətin bir vəziyyətdir, amma bunun üzərində işləyirik. Nə baş verəcəyini görəcəyik, amma həqiqətən bu ədalətli deyil".

Tramp, ayrıca, bu vəziyyətə görə F-35 təyyarələrinin istehsalçısı Lockheed Martinin məmnun qalmadığını, çünki firma üçün bunun minlərlə iş yeri anlamına gəldiyini deyib.

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bir müddət əvvəl bildirmişdi ki, ABŞ-ın F-35 təhdidlərinə görə Türkiyə Rusiya istehsalı döyüş təyyarələri ala bilər.

# DİN Avropa Gənclər Yay Olimpiya Festivalı zamanı qadağaları açıqladı



**Daxili İşlər Nazirliyi (DİN) iyulun 21-dən 27-dək Bakıda keçiriləcək Avropa Gənclər Yay Olimpiya Festivalı zamanı həyata keçiriləcək təhlükəsizlik tədbirləri haqqında məlumat yayıb.**

"Trend"ə verilən məlumatda bildirilir ki, iyulun 21-dən 27-dək Bakıda Avropa Gənclər Yay Olimpiya Festivalı keçiriləcək. Atletlər idmanın on növü - gimnastika, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında qüvvələrini sınayacaqlar. Festival zamanı 12 idman obyektində 2500-dən çox könüllü fəaliyyət göstərəcək.

DİN-in Mətbuat xidmətinin şöbə rəisi, polis polkovniki İlham Babayev bildirib ki, yarışlarda iştirakçıların və qonaqların, tamaşaçıların təhlükəsizliyi baxımından müvafiq tədbirlər görülüb:

"İctimai qaydanın qorunması və təhlükəsizliyin təmini məqsədi ilə daxili işlər orqanlarının əməkdaşları yarış keçirilən müddətdə gücləndirilmiş iş rejimində çalışacaq. Təhlükəsizliyin təmini məqsədi ilə yarışların keçiriləcəyi əraziyə velosipedlər, skeytbordlar, skuterlər, təhqiredici, eləcə də təxribat xarakterli dini-siyasi şüarlar, narkotik tərkibli və psixotrop dərmanlar, soyuducu qutuları, piknik və böyük çantalar, zəhərli-toksiki və tezalışan mayelər və maddələr, ətrafa ziyan verə biləcək və ictimai narahatlıq yaradan hər bir cihaz, spirtli içkilər, heyvanlar, içki konteynerləri, uşaq yeməkləri istisna olmaqla digər yeməklər, hər növ silahlar, fişənglər, fənərlər, lazer işıqları, musiqi alətləri və səs cihazları, video çəkən cihazlar, obyektivi 30 santimetrdən uzun olan fotokameralar, stul, kürsü və dronlar gətirmək qadağandır".

# Gürcüstan - Azərbaycan münasibətləri geosiyasi güc mərkəzlərinin "razborkasında" - iki ölkədə hakimiyyətə can atan qüvvələr...

**"Keşikçi qala" sərhəd məntəqəsində baş vermiş məlum hadisə ilə bağlı Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov açıqlama verib. Ə.Həsənov qeyd edib ki, son aylar ərzində Azərbaycan və Gürcüstan arasında strateji münasibətlərin ruhuna tamamilə zidd olan bu tipli təxribatların artan xətt üzrə inkişafı müəyyən suallar doğurmaya bilməz:**



***Qabil Hüseynli:** "Burada həm Azərbaycana qarşı olan qüvvələr, həm də Gürcüstanda hakimiyyəti ələ keçirmək istəyənlərin maraqları üst-üstə düşür"*

"Artıq hər iki tərəfin ekspertləri səviyyəsində müzakirələrdə belə fikirlər səslənir ki, görünür, iki qonşu dövlət arasında formalaşmış dostluq, strateji tərəfdaşlıq münasibətləri kimlərisə ciddi narahat edir və bu ölkələri, onların xalqlarını qarşı-qarşıya qoymağa çalışan qüvvələr var. Müzakirələrdə bu qüvvələrin kimliyi barədə də müəyyən fikirlər səsləndirilir".

Prezidentin köməkçisi bildirib ki, baş verən hadisələrdə böyük güclərin geosiyasi maraqları və onların daxili siyasi qüvvələrlə manipulyasiya cəhdləri özünü aydın büruzə verir: "Həmçinin, istər Gürcüstanda, istərsə də Azərbaycanda əsasən xarici təsir altında olan bəzi maraqlı siyasi qruplar baş vermiş insidentdən yararlanmağa və hakimiyyət uğrunda mübarizədə belə həssas məqamlardan istifadə etməyə çalışırlar. Görünən odur ki, bəhs olunan qruplar mövcud vəziyyətdən bəhrələnmək istəyən üçüncü tərəflərin tarixi-dini stereotiplərlə manipulyasiyası üçün açıqdırlar və bəzən də bilərəkdən xarici təsir üçün könüllü alət rolunu oynayırlar. Biz əvvəllər də ölkəmizin strateji maraqlarına qarşı "beşinci kolon"un imkanlarından istifadə cəhdlərini ifşa etmişik və buna yol verməmək zərurəti haqqında danışanda məhz belə halları nəzərdə tuturuq".

Göründüyü kimi, dövlət rəsmisi yaranmış vəziyyətdə təxribat izlərinin olduğunu açıq mətnlə qeyd edir. Hesab olunur ki, bu cür təxribatların arxasında xarici güc mərkəzləri və onların təsiri altında olan, hər iki ölkədə hakimiyyətə gəlmək istəyən daxili qüvvələr dayanır. Əli Həsənov bu fikirləri ilə konkret hansı qüvvələri nəzərdə tutur?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Əli Həsənov hadisələrə çox doğru qiymət verib: "Bu gün Gürcüstanın özünü də təxribata çəkməkdə maraqlı olan qüvvələr var. Bilirsiniz ki, Rusiya ilə Gürcüstanın münasibətləri çox gərgindir. Bu proseslərdə Rusiyanın da barmağının olduğunu istisna etmirəm. Təbii ki, ermənilərin rolunu da danmaq olmaz. Ermənilər burada iki məqsəd güdürlər. Birincisi, Rusiyanın xoşuna gəlmək üçün Moskvanın planına uyğun şəkildə davranmaq. İkincisi, məqsəd Azərbaycana zərbə vurmaqdır. Belə qənaətdəyəm ki, bu məsələdə Ermənistandakı dairələr Rusiyanın təlimatına uyğun şəkildə hərəkət edirlər. Gürcüstanın daxilində olan ermənilər isə guya xristian təəssübünü çəkərək, bu məsələyə aktiv müdaxilə edirlər. Gürcüstanın daxilində də Rusiyaya meylli partiyalar var. Məsələn, Nino Burcanadzenin partiyası bu məsələdə aktiv rol oynayır. Bəzi dini qurumlar və din üzərində qurulan partiyaları da göstərmək olar. Buradan görünür ki, Qafqazda daha bir münaqişə ocağının yaranmasında maraqlı qüvvələr var. Həmin dini zəmində olan qurumların üzvləri və rəhbərliyində ermənilər az deyil. Burada həm Azərbaycana qarşı olan qüvvələr, həm də Gürcüstanda hakimiyyəti ələ keçirmək istəyənlərin maraqları üst-üstə düşür. Mən inanmıram ki, Saakaşvilinin partiyası bu məsələdə aktivlik etsin. Çünki onlar bizimlə əlaqələrin inkişafında maraqlıdırlar. Proseslərin gedişindən hiss edirik ki, yaranmış vəziyyətdən Azərbaycanın daxilində olan bəzi radikal dairələr də istifadə etməyə çalışırlar. Məsələn, Azərbaycan hakimiyyətini qətiyyətli olmamaqda günahlandırırlar. Sanki yanan odun üstünə benzin tökürlər. Məqsəd də bəllidir, ölkədə stabillik pozulsun, bunlar hakimiyyətə gələ bilsinlər. Mən hər iki ölkə rəhbərliyinin tutduğu təmkinli mövqeni alqışlayıram.

**Hakimiyyətlərin analoji davranışı bizim ölkələrimiz arasında olan səmimi dostluğa tam uyğundur. Belə olacağı təqdirdə, kənar qüvvələrin heç bir məkrli niyyəti baş tutmayacaq".**

*Məhəmmədəli QƏRİBLİ*

# Rusiya sanksiyalara görə Avropa Birliyini pislədi, Türkiyənin də doğru yol tutmadığını dedi

**Rusiya xarici işlər nazirinin müavini Aleksandr Qruşko Avropa Birliyinin Türkiyəyə qarşı Şərqi Aralıq dənizindəki situasiya ilə əlaqədar qəbul etdiyi sanksiya qərarına münasibət bildirib. O qeyd edib ki, rəsmi Moskva buna mənfi münasibət bəsləyir. Qruşko, bununla belə, Türkiyənin Şərqi Aralıq dənizindəki fəaliyyətlərini Rusiyanın da dəstəkləmədiyini bildirib.**

***Fikrət Sadıqov:** "Rusiyanın mövqeyini neytral qalmaq kimi yozmaq olar"*




Onun sözlərinə görə, bu tip tədbirlər qarşıdurmada olan tərəflərin mövqelərinin radikallaşmasına gətirib çıxarır.

Qeyd edək ki, Avropa Birliyi Şərqi Aralıq dənizindəki qazma işləri ilə bağlı Türkiyəyə sanksiya tətbiq etmək barədə qərar verib. Sanksiya planına əsasən, AB Ankaraya maliyyə yardımını məhdudlaşdıracaq, hava nəqliyyatı sazişi ilə bağlı danışıqları təxirə salacaq.

Rəsmi Moskvanın məsələyə bir qədər təzadlı mövqe sərgiləməsi çox maraqlı görünür. Rusiya həm Avropanı sanksiya tətbiqinə görə qınayır, həm də Türkiyənin addımlarını təqdir etmir. Bununla Rusiya nə demək istəyir?

Politoloq Fikrət Sadıqov "Bakı-Xəbər"ə bildirdi ki, Rusiyanın mövqeyini neytral qalmaq kimi yozmaq olar: "Moskva demək istəyir ki, Qərb öz istəklərini yalnız sanksiyalar vasitəsilə həyata keçirməməlidir. Çünki həmin sanksiyalardan bu gün Rusiyanın özü də ciddi əziyyət çəkir. Yəni ölkələrə bu cür təsir rıçaqlarını təqdir etmədiyini bildirir. Rusiya, eyni zamanda, Türkiyənin Aralıq dənizində apardığı qazıntılara da bəraət qazandıra bilmir. Çünki onların Şimali Kiprlə bağlı əvvəlki mövqeyi var. Rusiyanın məsələyə münasibəti belədir ki, Türkiyə 1974-cü ildə Şimali Kipri işğal edib. Rusiya Türkiyənin bugünkü hərəkətlərini açıq şəkildə dəstəkləsə, ənənəvi mövqeyinə qarşı getmiş olar. Bu baxımdan da Türkiyəni bu cür diplomatik şəkildə müdafiə etməli olub. Əslində isə Türkiyə həmin vaxt etnik türklərə qarşı aparılan genosidin qarşısını alıb. Bunu etməyə məcbur idi. Türkiyənin hazırda qazıntı apardığı ərazilər beynəlxalq sulardır və istənilən ölkə orada araşdırma və qazıntı apara bilər. Bunun üçün Türkiyəyə təyin olunan sanksiyalar ədalətsiz və qərəzlidir. Bu sanksiyalar birtərəflidir və sadəcə, Kipr Respublikasının maraqlarına xidmət edir. AB-nin tərəfləri danışıqlar masasına gətirmədən, anidən sanksiyalar tətbiq etməsi beynəlxalq hüquq normalarına ziddir".

Qeyd edək ki, iyulun 15-də Avropa İttifaqının tətbiq etdiyi sanksiyada da Türkiyə sətiraltı olaraq başqa dövlətin torpağında, Aralıq dənizinin şərqində, Kipr adasının şelfində geoloji kəşfiyyat fəaliyyəti aparmaqda ittiham edilir. İttifaqa üzv dövlətlərin Xarici İşlər Nazirləri Şurasının qərarı ilə tətbiq edilən sanksiya əsasında qurum Türkiyə ilə yüksək səviyyəli təmasları və hava daşınması razılaşmasını dayandıracaq. Türkiyənin onlardan 2020-ci ilədək alması gözlənilən 145,8 milyon avronun verilməsi kəsiləcək. Qeyd edək ki, İttifaq Türkiyəyə 2014-2020-ci illər üçün 4,4 milyard avroluq maliyyə ayırıb. Bu maliyyə yardımının demokratiya, hüququn aliliyi, təməl hüquqlar, iqlim, enerji, rəqabət mühiti, innovasiya, təhsil, sosial siyasət və başqa sahələrə xərclənməsi nəzərdə tutulub. Hətta qurum Avropa Sərmayə Bankından Ankaraya veriləcək kredit dəstəyinin gözdən keçirilməsini də istəyib. Qərarda vurğulanıb ki, qazma işləri davam etdiriləcəyi təqdirdə əlavə sanksiyalar da tətbiq ediləcək. İttifaq hesab edir ki, Türkiyənin apardığı kəşfiyyat işləri Kiprin yunan hissəsinin, Kipr Respublikasının "suverenliyinin pozulmasıdır".

Türkiyənin Xarici İşlər Nazirliyi isə bildirib ki, şuranın qərarının Aralıq dənizinin şərqindəki fəaliyyətlərinə heç bir təsiri olmayacaq: "Kipr adasında kiprli türklər yunanlarla eyni hüquqa malikdirlər. Ancaq qərarda kiprli türklərin bu haqqından bəhs edilməyib. Avropa İttifaqı bu qərarda türkləri görməzdən gəlib. Bu isə Aİ-nin Kipr məsələsində tərəfsiz olmadığını göstərir".

*Məhəmmədəli QƏRİBLİ*

**Almaniyanın müdafiə naziri Ursula fon der Lyayen Avropa Komissiyasının sədri seçilib. Avropa Parlamentində baş tutan gizli səsvermədə deputatların 383-ü onun lehinə, 327 nəfər əleyhinə səs verib. 22 nəfər isə bitərəf qalıb. Qeyd edək ki, Ursula fon der Lyayen Avropa Komissiyasına rəhbər seçilən ilk qadın siyasətçidir.**

# Avrokomissiyanın sədri postunda tarixdə ilk qadın - milliyyətcə alman, peşəsi ginekoloq, siyasi baxışlarına görə qatı avropaçı...



Yeni sədrin çox maraqlı tərcümeyi-halı var. 60 yaşlı xanım siyasətçi 7 uşaq anasıdır. Xatırladaq ki, Avrokomissiyanın yeni sədrinin seçkisi 3 günlük gərgin müzakirələrdən sonra baş tutub. Qeyd olunur ki, belə bir seçim Avropanın siyasətində yeniləşməyə səbəb olacaq. Lyayen Brüsseldə dünyaya gəlib, 13 yaşında Almaniyaya köçüb. İlk ali təhsili Londonda iqtisadiyyat üzrə alıb, sonra həkim-ginekoloq olub. Alman dili ilə yanaşı, ingilis və fransız dillərində də sərbəst danışır. Aktiv siyasətə 40 yaşında gəlib və tez bir zamanda populyarlıq qazanıb. Artıq 2005-ci ildə o, Angela Merkelin kabinetində önəmli postlardan birini tutub. Növbəti kabinetdə əmək naziri olan xanım siyasətçi artıq 2014-cü ildə formalaşan kabinetdə müdafiə naziri postuna sahiblənə bilib. Bununla da o, Almaniyanın tarixində ilk qadın müdafiə naziri olub. Təbiətcə feminist olan xanım siyasətçiyə bu postda çalışmaq asan olmayıb. Çünki tabeliyindəkilərin çoxu mundirli kişilər olduğundan, onlarla ümumi məxrəcə gəlmək yeni nazirə asan başa gəlməyib. 2019-cu ildə məhz onun səyi ilə İkinci Dünya Müharibəsindən sonra ilk dəfə olaraq Almaniyanın hərbi büdcəsi kəskin artırılıb. Hətta bildirilir ki, həmin məbləğ NATO standartlarını də aşıb keçib. Səbəb kimi Əfqanıstanda xidmət edən alman hərbçilərin elementar məsələlərlə bağlı çatışmazlıqlarının olması göstərilib. Lyayen tez-tez televiziyalarda görünməyi sevir. Ancaq hesab edilir ki, daim qalmaqallarda adının hallanması onun reytinqini bir qədər aşağı salmış olub. Alman mətbuatı yazır ki, Berlində belə odioz bir siyasətçinin ölkənin daxili işlərindən uzaqlaşdırılmasına çox sevinirlər. Yeni sədr Avropanın daha çox federallaşmasının tərəfdarıdır. Hətta ümumi Avropa ordusu tələbi ilə çıxış edir. Bir sıra Avropa ölkələri hesab edirlər ki, onun yeni posta seçilməsi Fransa ilə Almaniyanın arasındakı separat razılaşma əsasında baş tutub və hər iki ölkənin maraqlarına xidmət edir. Bu bizim Avrokomissiyanın yeni xanım sədr barədə olan qeydlərimiz idi. Bəllidir ki, ondan əvvəl həmin postu tutan Yunkerin Azərbaycana qarşı münasibəti heç də ürəkaçan olmayıb. Bəs Azərbaycana münasibətdə alman xanım siyasətçidən nələri gözləmək olar?

Avropa qurumları ilə sıx təmasda çalışan ekspert Yeganə Hacıyeva bizimlə söhbətində bildirdi ki, yeni sədrə əvvəl çalışdığı vəzifəsi prizmasından yanaşmaq olmaz: "Çünki o, Almaniyada tam fərqli post tutub, burada isə onun işi başqa olacaq. Əsasən ondan maliyyəyə ciddi nəzarət gözlənir. Çünki hazırda Avropa Birliyinin büdcəsində ciddi problemlər var. Gələcəkdə bunun artacağı da gözlənir. Çünki qurumun Rusiyaya tətbiq etdiyi sanksiyalara Rusiya həmin quruma aid olan ölkələrin mallarının aralıq koridorlarda boykotu ilə cavab verir. Avropa Birliyində hesab edirlər ki, yeni sədr ona göstərilən etimadı doğrulda biləcək. Həmçinin, Avropa Birliyinin müdafiə sayəsinə ayrdığı maliyyə ilə bağlı kəskin fikir ayrılığı var. Yeni sədrin bu istiqamətdə konsepsiyası və öz ölkəsindəki müdafiə sahəsindəki təcrübəsindən yararlanmağı planlaşdırırlar. Biz ölkə olaraq strateji fazaya qədəm qoymuşuq. Avropanın təhlükəsizliyində olan unikal rolumuzdan istifadə edərək, Avropa qurumları ilə daha fəal ünsiyyətə keçməliyik. Mən hesab edirəm ki, yeni sədrin dönəmində ölkəmizə münasibət müsbət mənada dəyişəcək. Praqmatik siyasətçi olan xanım sədr əməkdaşlığa yalnız Avropanın dominant mövqeyindən deyil, həm də ölkəmizin maraqlarını nəzərə almaqla yanaşacaq. Hesab edirəm ki, bütün rəsmi görüşlərdə sərxoş olan Yunkerdən fərqli olaraq, biz qadın və praqmatik siyasətçinin obrazında ölkəmizlə daha sıx əməkdaşlığın şahidi olacağıq. Bizə yönəlik qərəzli lobbi qruplarının fəaliyyəti və ondan doğan tənqidlərin azalacağını görəcəyik".

***Məhəmmədəli QƏRİBLİ***




# İraqda türkiyəli diplomat öldürüldü

**İraqın Ərbil şəhərində bir restorana silahlı hücum nəticəsində Türkiyənin bu şəhərdəki Baş Konsulluğunun diplomatı qətlə yetirilib.**

Baki-xeber.com Türkiyə mediasına istinadən xəbər verir ki, Ərbil Baş Konsulluğunun diplomatları getdikləri "Huqqabaz" adlı restoranda silahlı hücuma məruz qalıblar.

Restoran sahibinin açıqlamasına görə, diplomatlar içəri daxil olduqdan sonra mülki geyimli və üzərində iki silah daşıyan şəxs Konsulluq əməkdaşlarına atəş açıb. Naməlum şəxsin susdurucu silahdan açdığı atəş nəticəsində Türkiyə konsulunun köməkçisi Hakan Karaçay hadisə yerində keçinib. Hadisə yerində olan iki iraqlının da öldürüldüyü bildirilir.

Diplomatlara silahlı hücum edən naməlum şəxs və ya şəxslərin tutulması üçün Ərbildən başqa şəhərlərə gedən bütün yollar başlanıb.

# Rusiyanın bəzi ölkələrə hücuma hazırlaşdığı iddiası...



**Rusiya qadağan olunmuş raketlərlə silahlanmağa davam edir və Avropada müharibə aparmağa hazırlaşır.**

Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, bu barədə "Die Welt" qəzeti yazıb.

Qəzet məqalədə istefada olan general-leytenant, NATO baş katibinin keçmiş müavini Haynrix Braus və Kil Universitetinin Təhlükəsizlik Siyasəti İnstitutunun direktoru Yoaxim Krauzenin açıqlamalarına yer verib. Krauzenin fikrincə, Avropanın iqlim dəyişikliyi və miqrasiya böhranı ilə mübarizə apardığı bir vaxtda Rusiya heç bir əsas olmadan nüvə silahı ilə təhdid edilən regional döyüşlərə hazırlaşır.

Braus isə, Rusiyanın Qərb dövlətləri ilə bilərəkdən qarşıdurmaya getdiyini, dünya nizamını və NATO-nun birliyini pozmağa çalışdığını, ancaq NATO ilə qarşıdurmadan qalib çıxa bilməyəcəyini bildiyi üçün nüvə təhdidi ilə qəfil zərbə endirə biləcəyini iddia edib.

Braus Rusiyanın bu addımları nəticəsində Avropa ölkələrinin əhatəli bir müharibə ilə status-kvonu Moskvanın lehinə radikal bir şəkildə dəyişdirmək arasında seçim etmək vəziyyətində qalacaqlarını deyib.

İstefada olan general Rusiyanın hücumlara başlaya biləcəyi yerləri də sadalayıb - Qara dəniz bölgəsi, Baltik ölkələri, Polşa və Ukrayna.

Hər iki ekspert də belə bir qarşıdurmada coğrafi mövqeyinə görə əsas rolda Almaniyanın olacağını deyərək, Alman rəhbərliyini silahlı qüvvələrini bir an əvvəl NATO-nun çətin vəzifələrini icra etmək üçün müharibəyə hazır vəziyyətə gətirməyə çağırıb.

# Bakı və Tiflisə qarşı məkrli plan...

**Gözlənildiyi kimi, Gürcüstandan olan bir qrup şəxsin Azərbaycan istiqamətində dövlət sərhədini pozaraq ölkə ərazisində yerləşən "Keşikçidağ" mağaralar kompleksi yaxınlığında xidmət aparan sərhəd naryadına hücum etməsi rəsmi Bakı tərəfindən kifayət qədər sərt qarşılandı. Bu prosesdə üçüncü qüvvənin əlinin olmasına diqqət çəkən Azərbaycan tərəfinin əsas istəyi belə olayların təkrarlanmasına yol verməmək və hadisəni törədən təxribatçıların layiqli cəzasına çatmasıdır.**

İndilikdə görünən budur ki, Azərbaycan və Gürcüstana qarşı məkrli plan dövriyyədədir və hədəf Bakı-Tiflis münasibətlərini pozmaqdır. Bundan ən çox zərər çəkən tərəf isə məhz Gürcüstan özü ola bilər. Bu mənada hesab edilir ki, Tiflis artıq belə təxribatlara qarşı real addımlar atmalıdır. Elə Rusiyanın "regnum.ru" portalı da məsələyə məhz bu istiqamətdən yanaşır.

Portal Azərbaycanı Gürcüstan üçün mühüm tərəfdaş adlandıraraq yazır: "2019-cu il iyulun 14-də Gürcüstan-Azərbaycan sərhədində təhqirli ifadələri özünə uyğun bilən və radikal köklənmiş bir qrup Gürcüstan vətəndaşının "Keşikçidağ" mağara kompleksinin yaxınlığında Azərbaycan sərhədçilərinə hücumu Gürcüstanın Bakıdakı səfiri Zurab Pataradzenin Azərbaycan Xarici İşlər Nazirliynə dəvət edilməsinə səbəb olub. XİN baş verənləri Azərbaycan və Gürcüstan arasındakı strateji tərəfdaşlıq ruhuna zidd hərəkət və iki müttəfiq ölkə arasında qarşıdurma yaratmağa yönəlmiş fitnəkarlıq kimi dəyərləndirib. Bakı Tiflisdən bu hadisəni araşdırmaq və uyğun tədbirlər görməyi tələb edib.



Gürcüstan tərəfi hadisənin Gürcüstan və Azərbaycanın strateji münasibətlərinə uyğun gəlmədiyi ilə razılaşıb və ekspert qruplarının və delimitasiya komissiyalarının görüşlərini davam etdirməyə "tam hazır olduğunu" ifadə edib, təxribatlardan yayınmaq üçün ictimai güclər tərəfindən maksimal təmkin göstərməyin önəminə diqqət çəkib. Hər iki dövlətin müvafiq strukturlarının məsul şəxsləri duruma operativ reaksiya verib və fitnəkarların durumu böyütməsinə, Bakı və Tiflisin strateji tərəfdaşlığına ziyan vurmasına yol verməmək üçün gərəkli tədbirlər alıb. Azərbaycan prezidentinin köməkçisi Əli Həsənov bildirib ki, ekspertlər səviyyəsində müzakirələrin gedişində artıq hər iki tərəfdən fikirlər səslənir ki, iki qonşu dövlət arasında formalaşmış dostluq münasibətləri və strateji tərəfdaşlıq kimisə ciddi narahat edir. Ölkələri baş-başa toqquşdurmaq istəyən güclər var. O, ümidini ifadə edib ki, "Azərbaycan və Gürcüstan xalqları belə hallarda bundan sonra da sakitlik və müdriklik göstərəcək, duyğulara sərbəstlik verməyəcək, uyğun rəsmi instansiyalar isə bu hadisəni törədənlərin və iki dost ölkə arasında gərginlik yaratmaqda maraqlı olanların kimliklərini prinsipial qaydada müəyyən edəcək, onları cəzaya cəlb etməyi təmin edəcək". Həsənov təəssüflə qeyd edib ki, baş verən hadisələrdə müəyyən güclərin geopolitik maraqları və onların daxili siyasi prosesləri manipulyasiya etmək cəhdləri açıq üzə çıxır.

Gürcüstan və Azərbaycanda xarici təsirə məruz qalan bəzi əlaqədar siyasi qruplar belə bir incə məqamda baş vermiş hadisədən hakimiyyət uğrunda mübarizə üçün yararlanmağa çalışırlar. Amma Gürcüstan-Azərbaycan münasibətlərində əslində nə baş verir, böhranı kim törədir, bu kimə əlverişlidir, yaranmış durumdan çıxış yolu varmı və hansıdır? Bakı politoloqu Tofiq Abbasovun fikrincə, Gürcüstan hökuməti ölkədə durumu nəzarətə götürməklə bağlı prinsipcə çətinliklər yaşayır. O cümlədən Azərbaycan yönündə. Tiflisin bir neçə cəbhədə oyuna vadar edildiyi mənzərə göz qabağındadır. Rusiya istiqamətində əvvəllər Rusiya Dövlət Dumasının deputatı Sergey Qavrilovun sədrliyi kimi formal texniki bəhanədən istifadə olunub. Kiçik hadisə bütün ölkə üçün risq amilinə çevrilib, dalğavari qarışıqlıq başlanıb: "Mən düşünməyə meyilliyəm ki, Gürcüstan üçün çılğın musiqi sifariş edən xarici güclər var və özlərinin təsir rıçaqlarını gücləndirmək üçün onu xaosa soxmaq istəyirlər".

Belə hesab edilir ki, antiazərbaycan əhvalını qızışdıran güclər fitnəkar və radikalları yönəldirlər, Gürcüstanda sabitliyi pozmaqda maraqlıdırlar ki, mərkəzi hökumət zəifləsin, Azərbaycanın simasında davamlı tərəfdaşların münasibətlərinə çiv vurulsun. Və ən başlıcası, daxil-siyasi şərait yenidən formatlansın və növbəti inqilabi dalğaya nail olunsun. Rusiya deputatının iştirakı ilə Pravoslav Assambleyası ilə bağlı hadisə baş verəndə etirazçılar sürətlə qruplaşdı, mərkəzi küçələri doldurdu və hökumətin istefası, parlamentə təkrar seçkilər siyasi tələblərilə çıxış etməyə başladılar. Yəni onlar hakim klasteri parçalamaq, onu müxtəlif tərəflərə ayırmaq, Gürcüstanı ənənəvi Rusiya amili orbitindən və ənənəvi dayanıqlı tərəfdaşlığa yönəlməkdən çıxarmaq üçün yeni inqilaba zəmin qurmaq məqsədi güdürdülər. Buna baxmayaraq, Moskva Gürcüstanla gələcək birgə fəaliyyət haqqında perspektiv planlara malikdir. Burada söhbət təkcə Azərbaycandan deyil, həm də Türkiyədən gedir.

Qafqazda yaranmış effektli Azərbaycan-Gürcüstan-Türkiyə konfiqurasiyası əks güclərin ürəyincə deyil. Bu, kiminsə maraqlarını təhdid edir, burada söhbət sırf geoiqtisadiyyatdan və Avrasiya inteqrasiya layihəsindən gedir. Bu üç dövlət həm də Avropa inteqrasiyası yönündə olduqca uyğun şəkildə işləyir. Belə vəziyyətdə Gürcüstanı amansız, qarışdırıcı planlar üçün arena seçiblər ki, bir yandan daxili asayiş laxlasın və birlik pozulsun. Bu istiqamətdə fəaliyyət göstərən güclərin yeganə məqsədi Gürcüstanın marginal, radikal bölümünü Azərbaycana qarşı kökləmək, Azərbaycan, Türkiyə və Gürcüstanın, demək olar, otuz il boyunca yaratdığı əlverişli düzəni pozmaq üçün ölkələr arasına nifaq salmaq, sonra isə yeni siyasi oyunlar üçün özül qoymaqdır.

Faktdır ki, Azərbaycan transsərhəd hadisəsində tədbirlilik, təmkin göstərib, bu da anlaşılan səbəblərdən Azərbaycan cəmiyyətinin bir hissəsinə çox da xoş gəlmir. Çünki gürcü radikalların Azərbaycan sərhədçilərinə münasibətinə qarşı sərt tədbir görməkdə ictimai güclərdən çağırışlar var idi. Gürcüstan hökumətinin özü öz radikallarını rəsmən pisləyir, amma onlara qarşı hətta cərimə növündə də konkret tədbirlər görmür. Gürcüstan hökuməti bundan sonra da öz marginallarına güzəşt edərsə, özünə problemlər qazanacaq. Respublikanın İnzibati və Cinayət məcəllələrinin nəzərdə tutduğu adekvat tədbirləri qabaqcadan görmək gərəkdir. Planetin müxtəlif hissələrində inqilabi ssenarilər oynayan və millətçilər, radikallar və marginalların əlilə bölgəmizdə həmişəki rejimi pozmaq istəyən beynəlxalq siyasi biznesmenlərin növbəti tullantısı Gürcüstanın qismətinə düşüb.

Onların qızışmağına yol verməmək üçün Rusiya, Türkiyə, Azərbaycanın, Gürcüstanın özünün sağlam güclərinin düşünülmüş kooperasiyası gərəkdir. Əks halda, Tiflisin küçələri birdən qəzəbli qrupların sərəncamına keçərsə, həm Gürcüstanın özü, həm də bölgə layihələri ziyan görər. Ən başlıcası, bütün dinc və geoiqtisadi təşəbbüslər üçün mühüm platforma və əsas tələb olan təhlükəsizlik itiriləcək. Gürcüstan hökuməti öz gücünü göstərməlidir, əks halda rıçaqları və durum üzərində nəzarəti itirər".

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Türkiyə-Rusiya sövdələşməsinin Qarabağ proseslərinə təsiri Ermənistanda şok effekti yaradır

**Qardaş Türkiyənin Rusiyadan S-400 zenit-raket kompleksi almasından bu gün ən çox narahat olan tərəflərdən biri də işğalçı Ermənistandır. Bu ölkədə hesab edirlər ki, Türkiyə artıq aldığı bu raketlər vasitəsilə Ermənistana da çox asanlıqla nəzarət edəcək.**

Hətta belə iddialar da səslənir ki, S-400-lər vasitəsilə toplanan məlumatlar Ankara tərəfindən Bakıya da ötürüləcək və bu hal Dağlıq Qarabağ münaqişəsinin mümkün hərbi həllində Azərbaycan tərəfi üçün xüsusi əhəmiyyət kəsb edəcək.

Amma erməniləri qorxuya salan təkcə S-400 zenit-raket kompleksi deyil.

Məsələ burasındadır ki, Rusiya müasir elektronika vasitələrilə təchiz edilmiş yeni döyüş təyyarələrini də Türkiyəyə satmağa hazır olduğunu bildirir. Xüsusən də F-35 qırıcı təyyarələrin artıq Türkiyəyə satılmayacağının dəqiqləşməsindən sonra bu ehtimal daha da artıb. ABŞ prezidenti Donald Tramp Ağ Evdə keçirdiyi mətbuat konfransında bildirib ki, F-35 qırıcı təyyarələri Ankaraya verilməyəcək. Onun sözlərinə görə, Türkiyənin Rusiyadan S-400 zenit-raket kompleksi alması ən çox ABŞ-ı narahat edir. O, Barak Obamanın zamanında "Patriot" qurğularının Türkiyəyə satılmamasının yanlış qərar olduğunu, bu səbəbdən də türklərin Rusiyaya yönəldiyini deyib. ABŞ dövlət başçısı, həmçinin, iki dövlət arasındakı münasibətlərin gərgin olduğunu, hər şey aydınlığa çıxmadan Türkiyəyə F-35 qırıcı təyyarələrini satmayacaqlarını bildirib: "Rusiyadan raket sistemi aldığı üçün NATO üzvü Türkiyəyə qırıcı satmayacağıq. Biz də çətin vəziyyətdə qalmışıq, onlar da, hətta bu təyyarələri istehsal edən firma da. Danışıqlar davam edir, görək qarşıdakı günlərdə nə baş verəcək". Məhz belə bir vaxtda Rusiya baş nazirinin köməkçisi Yuri Borisov bildirib ki, Rusiya Türkiyəyə istehsal etdiyi döyüş təyyarələrini satmaq təklifi verib. O bildirib ki, Türkiyə tərəfi ilə rus istehsalı döyüş təyyarələrinin tədarük edilməsini ehtiva edən bir razılaşma üçün görüşməyə hazırdırlar. Yuri Borisov Türkiyəyə hava hücumundan müdafiə sistemi ilə yanaşı, döyüş təyyarələrinin tədarükü üçün görüşlərin mümkün olub-olmadığı sualına belə cavab verib: "Niyə mümkün olmasın? Artıq əlimizdə bunun mümkün olduğuna dair nümunə var". Qeyd edək ki, daha əvvəl Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ-ın F-35 təhdidlərinə görə Rusiyadan təyyarə də ala biləcəklərini bəyan edib.

Erməni ekspert Varujan Qeqamyan isə bildirir ki, Türkiyə S-400 zenit-raket kompleksindən sonra Moskvadan ən müasir Su-57 döyüş təyyarələrini ala bilər. Həmin təyyarələr və S-400 zenit-raket kompleksi vasitəsilə Ermənistan ərazisinə də Türkiyəyə çox asanlıqla nəzarət etmək imkanı qazanacaq. O bildirib ki, rəsmi olaraq Rusiyadan tədarük edilən zenit raket kompleksinin Suriya ilə sərhəddə yerləşdiriləcəyi bildirilsə də, son dövrlərdə yayılan məlumatlara görə, kompleksin Ankara çevrəsində və Ermənistan sərhədində də yerləşdiriləcəyi ehtimal edilir: "Kompleks real müharibə bölgəsində yerləşdirilməməsi ehtimalına görə hələlik ABŞ tərəfindən kəskin tənqid edilmir. Rusiyadan alınan S-400 raket kompleksi Türkiyənin daxil olduğu NATO-nun sisteminə qoşulmayacaq və ayrıca fəaliyyət göstərəcək. Bu sistem sırf Türkiyə Silahlı Qüvvələri tərəfindən istifadə ediləcək. Bu addım Türkiyə Silahlı Qüvvələri tarixində ciddi dönüşdür. S-400 zenit-raket kompleksi və Su-57 döyüş təyyarələri ən müasir elektronika və müşahidə sisteminə malikdir. Onların Ermənistana yaxın ərazilərdə yerləşdirilməsi Türkiyənin ölkəmizə nəzarət etməsinə imkan yaradır. Toplanan məlumatların Azərbaycana ötürülməyəcəyinə isə heç kim zəmanət verə bilməz". Erməni ekspert xatırladır ki, S-400-lərin idarəçiliyini yalnız Türkiyənin özü həyata keçirəcək və əvvəldən gözlənildyi kimi, sistemə həm də ruslar nəzarət etməyəcək. Xatırladaq ki, bu faktı Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu da təsdiq edib: "Türkiyəyə gətirilən S-400 zenit-raket kompleksləri tamamilə bizim nəzarətimizdə olacaq. Aldığımız S-400 sistemi F-35 də daxil olmaqla NATO sistemlərinə heç bir təhdid yaratmır. Tamamilə bizim nəzarətimizdə olacaq bir sistemdir. Lazımsız gərginlik yaratmağa ehtiyac yoxdur. Onsuz da yekunlaşmış razılaşmadır. Artıq onların gətirilmə prosesi başlayıb". Varujan Qeqamyan isə bildirir ki, məhz bu vəziyyətdə Türkiyənin istənilən məlumatı Azərbaycana ötürməsi daha asan şəkildə reallaşacaq. Onun fikrincə, hərbi sahə ilə yanaşı, Rusiya və Türkiyə arasında "Türk axını" qaz kəməri, atom stansiyalarının inşası sahəsindəki əməkdaşlıq taktiki xarakter daşıyır və hər iki ölkə üçün əlverişlidir. O bu vəziyyətin, Azərbaycandan fərqli olaraq, Ermənistanın regionda mövqeyinə mənfi istiqamətdə təsir göstərdiyini də vurğulayır. Erməni mediası isə yazır ki, Türkiyənin S-400 sistemlərini Ermənistan sərhədində yerləşdirməsi qaçılmaz olacaq. Çünki Türkiyə və Rusiyanın S-400-lərin alınması ilə bağlı anlaşmasında "məhdudiyyətin olmaması" detalı mövcuddur. Məsələ burasındadır ki, NATO Türkiyənin Avropa İttifaqı ölkələri və ABŞ-dan aldığı silahlarla bağlı bəzi məhdudiyyətlər qoyur. Məsələn, bunlardan biri də bu silahların Yunanıstan sərhədinə yerləşdirilməməsidir. Rusiya isə Türkiyənin qarşısında belə bir məhdudiyyət qoymayıb və bu, Ankaranın S-400 batareyalarından birini Ermənistan sərhədinə yerləşdirməsinə heç bir maneənin olmaması deməkdir. Ekspertlər də qeyd edir ki, S-400-lərin bir batareyasının Yunanıstan sərhədinə yerləşdirilməsi Türkiyəyə bu istiqamətdən gələn təhdidlərin qarşısını almağa imkan verəcək. Bir batareyanın Ermənistan sərhədinin yaxınlığına yerləşdirilməsi isə həm İran, İraq, həm Suriyadan gələ biləcək təhdidlərə qarşı etibarlı müdafiəyə şərait yaradacaq, həm də Şərqi Aralıq dənizinə nəzarət etmək mümkün olacaq. Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahı Kəşfiyyat İdarəsinin keçmiş rəhbəri, general İsmail Hakkı Pekinin də bu xüsusda fikirləri xüsusi diqqət cəlb edir: "Yunanıstandan mümkün hava hücumu ola bilər. İsrail təyyarələrinin də hücumları mümkündür. Digər tərəfdən İran var, hazırda düşmən deyil, amma gələcəkdə nə olacağını bilmirik. Nəticədə əllərində 2000-2500 kilometr mənzilli ballistik raketləri var. Təhdidlər Ermənistan tərəfdən də ola bilər. Bütün bunlara qarşı Türkiyənin hava müdafiəsi yoxdur. Bizim 7-8 kilometr mənzilli "Stinqer"lər və zenit raketlərimiz var, lakin bunlar quru qoşunlarının yaxın müdafiəsini təmin edir. Hərbi Dəniz Qüvvələrində gəmilərin yaxın müdafiəsini təmin edən sistemlər var. O da hər gəmidə yoxdur. Hərbi Hava Qüvvələrində də təyyarələrin bir qismi bombardmançı, bir qismi isə kəşfiyyatçıdır. Yəni təyyarələri qarşı tərəfə göndərirsiniz, gələn təyyarələri də ya havada, ya da yerdə olarkən məhv edirsiniz. Lakin indi şərtlər çox dəyişib. Təyyarələr 150-200 kilometr mənzildən bomba ata bilir. Misal üçün, Təl-Əvivdən qalxan təyyarə heç bir sərhəd pozuntusu etmədən Türkiyəyə 150-160 kilometr mənzilli raket ata bilər. İndi belə hücumların qarşısını alacaq sistemlərə ehtiyacımız var". Türkiyəli generalın bu açıqlaması S-400 sistemlərindən birinin niyə Ermənistanla sərhədə yerləşdirilməsi ehtiyacını aydınlaşdırır. Digər tərəfdən belə vəziyyət Türkiyənin hava müdafiəsini təşkil etməklə yanaşı, bölgədə Azərbaycanın da hava üstünlüyünə əlavə dividendlər gətirəcək.

Burada ekspertlər xatırladır ki, Azərbaycan və Türkiyə arasında mövcud Strateji Əməkdaşlıq Sazişi iki ölkədən birinə qarşı hərbi təhdidin yarandığı vaxt digərinin dəstəyini şərtləndirir. Doğrudur, Azərbaycan ordusunun Ermənistanla baş verə biləcək müharibədə buna ehtiyacı olmayacaq. Hərbi arsenalımızda mövcud olan raket kompleksləri də istənilən təhdidin qarşısını almaq gücündədir. Lakin S-400-lərin Ermənistan sərhədinin yaxınlığında yerləşdirilməsi ölkəmizə əlavə üstünlüklər qazandırır. Çünki bu vəziyyət mümkün müharibədə bölgənin hava məkanının Ankara və Bakının nəzarətində olması deməkdir. Baş verənlər fonunda

"armenianreport" yazır ki, Moskva və Vaşinqton yaranmış vəziyyəti nəzərə almalı, Ermənistanı daha zəif duruma salmalıdırlar. Qeyd olunur ki, ABŞ Türkiyəyə qarşı sanksiyaları təcili tətbiq etməlidir: "Ankaranın İrəvana qarşı siyasəti məlumdur, Türkiyə Azərbaycana Ermənistanı blokadada saxlamağı üçün dəstək verir. Türkiyə-Azərbaycan hərbi-siyasi ittifaqı Ermənistanı hədələyir. Bu baxımdan, bizə dostlarımız dəstək verməlidir". Portal Rusiyanı da Türkiyə və Azərbaycana hərbi dəstəyi davam etdirməsinə görə ittiham edir.

O da qeyd olunur ki, perspektivdə Rusiya Azərbaycana da S-400 verə bilər:"Azərbaycan bu raket kompleksini alsa, "İsgəndər"lərdən daha etibarlı müdafiə yarada bilər. Əslində bu, Moskvanın razılığı ilə baş tutacaq məsələdir. Ermənistana "İsgəndər" verən Rusiya Azərbaycana da S-400 verərək, münasibətləri qorumağı düşünür". Bütün bunlar Türkiyə və Rusiya arasında hərbi yaxınlaşmanın artıq Ermənistan üçün əsl kabusa döndüyünü əyani surətdə təsdiq etməkdədir. Digər tərəfdən o da aydın olur ki, Ermənistanın bütün etirazlarına baxmayaraq, Moskva və Ankara hərbi müstəvidə də əlaqələri genişləndirməyi düşünür. Hadisələrin bu səpkidə inkişafından məmnun qalan tərəflərdən biri isə Azərbaycandır. Çünki qarşıdakı dövr ərzində Azərbaycan Türkiyə və Rusiyanın yaxınlaşmasından ən çox fayda götürəcək tərəflərdən sayılır. Elə erməni tərəfini də narahat edən əsas məqamlardan biri məhz budur. Bundan başqa, işğalçı ölkə onu da yaxşı bilir ki, Azərbaycan-Türkiyə-Rusiya üçbucağında intensiv şəkildə inkişaf edən münasibətlər perspektivdə Ermənistanı daha zəif mövqe sahibinə çevirəcək. Elə bu səbəbdən də hadisələrin mövcud inkişaf axarı Ermənistanda indidən böyük əndişə yaradır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Ermənistan rəsmiləri İrəvan-Vaşinqton yolunda qalıb, İran qonşusunun xəyanətindən narahatdır...

**ABŞ və İran arasında getdikcə gərginləşən münasibətlərin perspektivdə Cənubi Qafqaza hansı təsir göstərəcəyi xüsusi diqqət mərkəzində yer almağa başlayır. İndilikdə görünən budur ki, ABŞ İrana qarşı təzyiqləri artırmağı düşünür, hadisələrin bu səpkidə inkişafından narahat olan əsas tərəflərdən biri isə işğalçı Ermənistandır.**



Belə görünür ki, bu gedişlə Ermənistanın İrandlan aldığı iqtisadi dəstək əhəmiyyətli dərəcədə azalacaq. Elə bu da İrəvan üçün çox ciddi problemlər deməkdir. Yaranmış durumdan narahat olan İrəvan, belə demək mümkünsə, indi Vaşinqtonun əl-ayağına düşüb. ABŞ-a İrəvan rəsmilərinin artan səfərləri də əsas etibarı ilə İrəvan ətrafında baş verən olaylarla bağlıdır. Qeyd edək ki, Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyan iyulun 18-də ABŞ-a səfər edəcək. Bu, son bir həftə ərzində ABŞ-a səfər edən 3-cü dövlət rəsmisidir. Bundan öncə Vaşinqtona baş nazirin müavini Tiqran Avinyan və spiker Ararat Mirzoyanın rəhbərlik etdiyi nümayəndə heyəti səfər edib. Onların keçirdiyi görüşlərin də əsas mövzusu məhz İranla bağlı olub. Məsələn, Ermənistan parlamentinin spikeri Ararat Mirzoyan Vaşinqtonda bildirib ki, ABŞ İrana qarşı tətbiq edilən sanksiyalara görə Ermənistana təzyiq göstərməməlidir: "Biz istəmirik ki, ABŞ İrana qarşı tətbiq edilmiş sanksiyalara görə Ermənistana təzyiq göstərsin. Ermənistan bunun altından qalxa bilməz". Mirzoyan qeyd edib ki, ABŞ-la İran arasında gərginliyin artması Ermənistan iqtisadiyyatına mənfi təsir edir. Çünki iki qonşusu ilə sərhədi bağlı olan Ermənistan İranla münasibətlərdən çox asılıdır. Zöhrab Mnatsakanyanın da görüşlərinin əsasən bu istiqamətdə olması gözlənilir. Amma erməni mütəxəssis Suren Sarkisyan bildirir ki, İrəvanın bu cəhdləri fayda verməyəcək. Çünki ABŞ Ermənistana görə İran planlarından vaz keçməyəcək, əksinə, İrəvandan dəstək görməsə, Vaşinqton Ermənistana qarşı da sərt addımlar atacaq. Onun sözlərinə görə, hazırda Ermənistanın hər hansı dövlət qurumunun İrana qarşı əlavə sanksiyalar tətbiq edildiyi halda strateji addımlar ardıcıllığı və ya strategiyası, yaxud İran-ABŞ qarşıdurması baş verdiyi halda Ermənistanın nə edəcəyinə dair bir planı yoxdur. Erməni ekspert vurğulayır ki, bu məsələdə bir məqam var və buna heç kim toxunmur: "Bu günlərdə İran Hava Hücumundan Müdafiə Sistemləri bir neçə uçan obyekti qeydə aldığını və bunlardan birinin PUA olduğunu bəyan edib. Belə çıxır ki, İran bütün növ insan itkilərindən yayınaraq, məhz PUA-nı məhv edib. Bu məqam çox vacibdir, çünki faktiki olaraq Vaşinqton buna cavab verib. Əməliyyat planlarına uyğun olaraq ABŞ-a aid olan aparat məhv edilirsə, bu halda, qaydalara uyğun olaraq, Birləşmiş Ştatlar atəş açılan obyektlərə cavab zərbəsi endirməlidir. Buna isə prezidentin əmri zəruridir. İndi nə baş verdi? ABŞ mətbuatı bəyan edərək bildirdi ki, Tramp peşman olub, əvvəlcə əmr verdi, daha sonra bu əmri ləğv edib". Lakin Sarkisyan qeyd edir ki, əslində belə olmayıb: "ABŞ-ın müvafiq Hərbi Hava Qüvvələri havaya qalxaraq, onlara aid PUA-nı məhv edən hədəflərə zərbə endirməyə hazırlaşıb. Lakin bunun üçün prezidentin icazəsinə zərurət var. Buna görə də, Pentaqonun generalları Ağ Evə gedərək, prezidentdən belə bir icazə verməsini xahiş ediblər. Nə qədər insan itkisinin olacağı sualına cavab olaraq, Pentaqon generalları 130-200 olacağını bildirib.

Maraqlıdır ki, Tramp insan itkilərindən yayınmağın zəruri olduğuna qərar verib. Tramp iranlıların təyyarəyə atəş açsa da, lakin pilotsuzu vurduğunu və nəticədə ABŞ tərəfinin hərbçi itkisi vermədiyini nəzərə alıb. Məhz buna görə Tramp İrana zərbə endirilməsi planını ləğv edib. O, İrana zərbə endirilməsinə icazə verməyərək, əvəzində İranın yüksək vəzifəli məmurlarına qarşı sanksiyalar tətbiq edib. Yaranmış vəziyyət onu göstərir ki, tərəflər gərginlikdən, birbaşa silahlı qarşıdurmadan yayınmağa çalışır və bu, bölgədə silkələnmələr olmaması baxımından çox vacibdir. Hamı bilir ki, bu toqquşmalar İran və ya ABŞ ərazisində baş verməyəcək". Belə olan halda Ermənistanın mövqeyinin nədən ibarət olacağı, necə siyasət aparmalı olduğuna dair suala o, "Ermənistan vəziyyətin istənilən inkişaf ssenarisinə hazır olmalıdır" deyə cavab verib: "Hətta ssenarinin inkişaf ehtimalı 1% olduğu halda belə Ermənistan buna hazır olmalıdır. Hazırda Ermənistanın hər hansı dövlət qurumunun İrana qarşı əlavə sanksiyalar tətbiq edildiyi halda strateji addımlar ardıcıllığı və ya strategiyası, yaxud İran-ABŞ qarşıdurması baş verdiyi halda Ermənistanın nə edəcəyinə dair bir planı yoxdur. Bunu Ermənistanın ən başlıca təhlükəsizlik təhdidlərindən biri hesab edirəm. Heç bir işlə məşğul olmayan, hətta təhlükəsizlik strategiyasını hazırlamamış Təhlükəsizlik Şurası ilk növbədə bu məsələ ilə məşğul olmalı, Ermənistanın yüksək vəzifəli komandanlıq heyətinə strateji addımlar ardıcıllığı yazmalı və təqdim etməlidi. Bu çox ciddi çağırışdır və Ermənistan hakimiyyətinin ilk növbədə məşğul olacağı sahədir. Gürcüstanda baş verənlər Ermənistan üçün eyni qaydada vacibdir. Gürcüstanda, yaxud İranda istənilən silkələnmə Ermənistanda hiss ediləcək. Çünki İran və Gürcüstan Ermənistanın dünyaya doğru açılan iki qonşu ölkələridir. Hər iki ölkədə baş verən hər hansı silkələnmə Ermənistanın həm siyasi, həm iqtisadi həyatına mənfi təsir göstərir".

"168.am" saytı isə yazır ki, İran erməni rəsmilərin ABŞ-a intensivləşən səfərindən narahatdır və Tehran İrəvanın ona xəyanət edə biləcəyini düşünür. Sayt, İrəvanın israrlı dəvətlərinə baxmayaraq, Tehranın Ermənistanda keçiriləcək Avrasiya İqtisadi Birliyinin iclasına qatılmaqdan imtina etməsini də elə bununla əsaslandırır. Qeyd olunur ki, bu fonda İran Ermənistanla iqtisadi əlaqələrini dayandırsa, İrəvanı daha böyük problemlər gözləyir. "Jamanak" qəzeti isə yazır ki, belə bir vaxtda Ermənistana ağır zərbə Gürcüstandan gələ bilər. Belə ki, Gürcüstan hökuməti Rusiyadan Ermənistana öz ərazisindən keçməklə buğda ixracına yenidən qadağa tətbiq etmək istəyir. Məlumata görə, bu qadağa artıq oktyabrın 1-dən tətbiq oluna bilər: "Bu baş verərsə, un bazarının mərkəzləşməsinə, çörək və çörək məhsullarının qiymətinin artmasına səbəb ola bilər. Donuz və quşçuluq üçün taxılın çox hissəsi də Rusiyadan idxal olunur ".

**Xatırladaq ki, Gürcüstan Ermənistan üçün taxılın idxalı cəhətdən yeganə tranzit ölkədir. Erməni idxalatçıları buğdanı əsasən Rusiyadan alır və onu ölkəyə Gürcüstan ərazisi vasitəsilə yerüstü nəqliyyatla gətirirlər. Hər ay Rusiyadan gələn, təxminən 3000 yüklə dolu avtomobil Gürcüstan ərazisindən keçməklə Ermənistana gedir. Bunların dayanması həqiqətən də Ermənistan üçün ciddi fəlakət deməkdir.**

***Nahid SALAYEV***

# "Dəfn etdiyi "Turan" agentliyi onun son qəmi olsun"!

## Mehman Əliyevin "KİVDF düşmənçiliyi"



Aydın QULİYEV

**90-cı illərin ortalarından Azərbaycanda dövlət quruculuğunun mühüm tərkibi və istiqaməti olan keyfiyyət islahatları bu gün də davam etdirilməklə dövrün ən aktual sosial-siyasi təzahürü kimi müxtəlif rəy və mülahizələr doğurmaqdadır.**

Struktur, kadr, sosial, son vaxtlar isə dövlət başçısının cəmiyyətlə ünsiyyət və polemika üsullarında özünü büruzə verən islahat və dəyişmə proseslərinə münasibətlərin kəskin fərqli səciyyə daşımasında təəccüblü bir şey yoxdur. Azərbaycanın özü getdikcə maraqlı olmağa başlayır, onu daxildən və xaricdən müşahidə altında saxlayan qüvvələrin maraqları arasında fərqlər də daha parlaq şəkildə özünü büruzə verməyə başlayır. Məsələn, bu sırada Azərbaycandakı islahatların hansısa nəticələri üçün özünü səmimi şəkildə məsuliyyət altında qoymağa çalışan, yaxasını heç bir halda və bəhanələrlə kənara çəkməyən təəssübkeş siyasi qüvvələr var. Müstəqilliyin ilk günlərində Sovetizmdən tam fərqli və daha fərasətli qüvvə olduqlarını cəmiyyətə qəbul etdirmək üçün "islahatlarımızla ölkəni 5 santim qızıla bürüyəcəyik" kimi hay-küyçü bəyanatlar verən, sonda birtəhər ələ keçirdikləri hakimiyyətlə yanaşı xalqın gözündə etimadlarını da həmişəlik itirən məlum qüvvələrin islahatlara yanaşmaları da bu sıradadır. Sırada başqa kimlərin də olduğunu hesaba vurmadan onunla kifayətlənək ki, siyahıda yer alan bu iki qüvvə diaqonal boyu bir-birinin əksinədir. Aralarındakı kəskin əkslik tək onunla bağlı deyil ki, onlardan biri 1993-cü ildə itirdiyi hakimiyyətin qisasını almağın konyunktur üsulu kimi ölkədə gedən islahatlara bütün hallarda qara yaxmağa çalışır, özlərinin hər şeydən təcrid edildiyi şəraitdə aparılan islahatların real nəticələr verdiyi fikri ilə heç cür barışmırlar. Barışmazlıq bəzən o həddə çatır ki, nəinki islahatların inkarı mövqeyi tutulur, ötən 25 ildə hətta heç nəyin dəyişmədiyini iddia etmək qədər məntiqsiz mövqeyə yuvarlanırlar.

**Siyasi inqilabı sadəcə bacarmadınız...**

Məntiqsizliyin sadə izahı budur ki, onlar özləri siyasi inqilab həyata keçirməyi sadəcə bacarmadılar, əks düşərgənin isə təkamüllü islahatlar nəticəsində ortaya qoya bildiyi nəticələrlə barışa bilmirlər.

Haqqında danışdığımız və islahatlara münasibətdə iki qütb arasındakı kəskin fərqin daha bir kökü var. Onlar Azərbaycandakı islahatlara ölkədən əl-ayaqları çoxdan yığışdırılmış Soros, Nauman fondları, İnkişaf Agentliyi və sair kimi əcnəbi mərkəzlərin "dequstasiya üsulları" ilə yanaşırlar. Təbii ki, bu gün Azərbaycandakı islahatlar dediyimiz fondların və onların "mamaçalığı" ilə 5-ci, 6-cı kolonlara çevilmiş qüvvələrin təsəvvürlərindəki islahat modellərindən çox fərqlidir. Təxminən 120-130 il əvvələ qayıdaraq kiçik bir müqayisəni birlikdə apara bilərik. İqtisadiyyat dahisi Karl Marks öz dövrü üçün xarakterik olan formasiyanın "Kapital" adı altında dərin təhlilini verməklə əslində iki əsas qüvvənin nəticə çıxarması üçün çox qiymətli material ortaya qoymuşdu. Bir nəticəni bolşeviklər çıxardılar. Onlar mövcud olan hər şeyi son vintinə qədər dağıtmaqla inqilab etməyi çıxış yolu saydılar. Nəticədə insanların fərdi azdlığını, xalqların müstəqil dövlətçilik ideyalarını sayı-hesabı bilinməyən qanlarda boğan bənzərsiz bir rejim aldıq.

Başqa bir nəticəni isə Marksın yazdıqlarını qanlı sosialist inqilabı kimi avantürist plan üçün əsas yox, həqiqi sosial-iqtisadi islahatlar üçün əsas kimi qəbul edən proqressiv qüvvələr çıxardı. Sadə bir yolla getdilər:"Heç nəyi birdən dağıtmaq yox, tədricən dəyişmək, islahatlar aparmaq, maddi rifahlara əli çatan ictimai kəsimin dairəsini tədricən genişləndirmək".

**Azərbaycandakı islahatlara**

ma xronikası qarşımızda maraqlı və ziddiyyətli mənzərə açır. Heydər Əliyevin dövründə heç bir islahatın aparılmadığını iddia etdilər. Halbuki, Heydər Əliyevin missiyası əvvəlcə dövlətin özünü qurmaq idi. Heydər Əliyev bu missiyanı aparmaqla bərabər, üstəlik daha böyük qəhrəmanlıq edərək həm də aqrar sektorda və digər sahələrdə ilk islahatları apararaq indiki islahatların əsasını qoydu. Dövlətin başçısının əsasən dövlətin özünü qurmaq kimi çox ağır missiya altında olduğu o vaxtlarda ondan islahatlar tələb etməyin normal siyasi düşüncə, ya da təəssübkeş milli mövqe olduğuna yalnız xəstələr hər birinin öz motivasiyası olduğunu sübut etmək üçün çox da "tər tökməyə" yəqin ehtiyac yoxdur. Məsələn, struktur islahatlarını götürək. Özünü doğrultmayan və ya missiyasını artıq həyata keçirmiş hansısa dövlət təşkilatı ləğv edilir, harasa birləşdirilir, ya da yenisi yaradılır. Motiv bəllidir. İşini görmüş və özünü doğrultmamış qurum proseslərlə ayaqlaşa bilmədiyi üçün ləğv olunur. Bu, dövlət orqanlarının daha səmərəli fəaliyyətinə fokuslanmış idarəçilik konsepsiyasının və normal məntiqi düşüncənin məhsuludur. Ancaq təəssüf ki, islahat- Onlara bu sualı öz yaxın çevrələrindən verən ayıq bir düşüncə sahibini, təəssüf ki, görmədik.

Eyni sözləri sosial islahatların motivasiyasının təhlilinə müxtəlif yanaşmalar barədə də demək mümkündür. Məsələn, hakimiyyət ideoloqları deyir ki, həyata keçirdiyimiz doğru siyasət nəticəsində ölkənin gəlirlərini və valyuta ehtiyatlarını o həddə çatdırmışıq ki, pensiyaları, maaşları, təqaüd və müavinətləri çox qısa fasilə və saysız etaplarla artırırıq. Doğru və sadə ifadə edilmiş məntiqli mövqedir. Radikal inqilabçıların düşərgəsində əsas ideoloqların biri kimi yer almış Mehman Əliyev isə bu





**Sorosun, Naumanın eynəklərindən baxanlar...**

Həqiqətən sadə yoldur. Sadəliyini bu gün Azərbaycandakı islahatlara və onun nəticələrinə Sorosun, Naumanın eynəklərindən baxanların düşüncələri ilə müqayisə etdikdə daha dəqiq görmək mümkündür.

Əslində, dağıdıcı inqilabçılıq təfəkkürü ilə hərəkət edənlərin Heydər Əliyevdən başlayaraq indiyə qədərki islahatlara yanaşinana bilər.

Hərtərəfli və dərin islahatlar üçün əsl şəraitin yetişdiyi İlham Əliyevin prezidentlik dövründə də islahatlara bu dairələrin münasibətində qəribə mənzərə əlamətləri var.

Bu gün ölkədə islahatların struktur, kadr, sosial və dövlət başçısının cəmiyyətlə ünsiyyət formalarında köklü dəyişikliklər kimi istiqamətlərini nəzərdən keçirmək olar. Bu istiqamətlərin ların fəlsəfəsini əslində dağıdıcı inqilabçılıq kimi təsəvvür edən Mehman Əliyev, Cəmil Həsənli, Əli Kərimli kimi Milli Şura mənsublarının düşüncəsi başqadır. Onlar bunu 1993-cü ildən indiyə qədər hakimiyyətin içində bir qruplaşmanın başqasını üstələməsi uğrunda gedən mübarizənin nəticəsi kimi qələmə verməkdən yorulmurlar. "Əşi, bu qruplar bir-birini qırıb axıra çatmadılar?!" düzgün və məntiqli mövqenin qarşısına çıxmaq istəyir. Hakimiyyətin 2019-cu ilin əvvəllərindən xüsusi proqramla başlatdığı sosial islahatların motivini belə izah edirlər:"Yanvarda keçirdiyimiz mitinqin təsir gücündən qorxdular". "Mənim atam hamıdan güclüdür" təfəkkürü ilə özünü həmyaşıdlarından fərqləndirmək istəyən uşağın düşüncəsinə oxşar belə yanaşmaya nə deyəsən?!

(Ardı 9-cu səh.)

(Əvvəli 8-ci səh.)

## "Siyasi rəqiblərə güzəşt olunmursa, deməli islahat getmir" məntiqi...

Azərbaycanda islahatların mahiyyətinə və hədəflərinə münasibətdə radikal inqilabçı ideoloqların düşüncəsi xüsusi dağıdıcılığı ilə seçilir. Ölkədə islahatların aparılmadığına, heç bir nəticəyə çatılmadığına inandırmaq üçün ən rəngarəng ideyalara əl atan "Turan"ın rəhbəri Mehman Əliyev nəhayət deyir ki, hakimiyyət heç bir güzəştə getmək istəmir. Onun "məntiq"i budur:"Siyasi rəqiblərə güzəşt yoxdursa, gedən proseslər islahat adlana bilməz. Güzəştlər olsa, hətta ən donuq hərəkətsizliklərə islahat demək olar". Siz deməyin, "islahat" meydanlara bir-iki min nəfəri güc-bəla toplaya bilən siyasi iddialı şəxslərə hakimiyyətin güzəştə getməsi kimi prinsipsiz bir mövqe imiş...

Bu gün bir neçə istiqamətdə özünü büruzə verən kadr islahatlarına yanaşmada da ambisioz və mənfəətpərəst düşüncə elementləri var. Məsələn, Mehman Əliyev desəydi ki, kadr islahatları dediyiniz prosesin içində mənə də bir vəzifə və ya bir mandat versəydiniz hər şeyə islahat deyərdim, daha səmimi və açıq görünə bilərdi. Son müsahiblərinin birində onu danışdırmış müxbir çoxbilmiş bir taktika ilə bir neçə dəfə onun boynuna qoymaq istəyir ki, "şəxsən siz Azərbaycanda əsl islahatların aparılacağına inandığınızı təkrar-təkrar deyənlərdən biri idiniz". Həqiqətən də bir vaxtlar buna inandığını deyən Mehman Əliyevin indi "heç bir islahat getmir" mövqeyində qərarlaşması oraya cavabsız suallar çıxarır:"Kadr islahatları ilə bağlı bir Prezident fərmanı onun özünə aid olsaydı nə baş verərdi?!"

Kadr islahatlarının heç bir nəticə vermədiyini iddia edən radikalların klassik nümayəndəsi kimi Mehman Əliyevin kinli davranmasının başqa səbəbi kadr islahatlarını vəzifədəki qocaların cavanlarla əvəzlənməsi kimi bəsit səviyyədə qavramasıdır. Bir yanlış mülahizənin dalına düşdüyü üçün sonda onu dörd bir tərəfdən sarmış yanlışlıqların, kinlərin, qərəz və ambisiyaların girovluğuna düşür. Çoxşaxəli xarakter daşıyan kadr islahatları kadrların yerləşdirilməsi, pis işləyənlərin vurulması, yenilərin və peşəkarların irəli çəkilməsi, nəhayət qocaların gənclərlə əvəzlənməsi kimi istiqamətlərə malikdir. Belə geniş məzmunlu prosesi təkcə "cavan-qoca mübarizəsi" səviyyəsinə endirmək Mehman Əliyevin hakimiyyət komandasında bir neçə yaşlı dövlət xadimindən şəxsi planda qısqılanmasından başqa bir şey deyil. Dövlət idarəçiliyi məsələlərinə şəxsi simpatiya və antipatiya prinsiplərindən yanaşanların əlinə real idarəçilik rıçaqlarının keçməsindən isə cəmiyyəti Allah qorusun!

Vəzifələrdə irəli çəkilmiş gənclərdən kimlərinsə özünü doğrultmaması heç bir halda "bu gənclərin hamısı əvəz etdiyi qocalar kimi işləyir" nəticəsinə gəlməyə əsas ola bilməz. Naumanların, Sorosların gizli məktəblərini bitirərək Azərbaycana atılmış gənclərin vəzifələrə qoyulmasından söhbət gedirsə, bu başqa məsələ.

Sosial məsələləri dilə gətirən insanların bu yöndəki fəaliyyətlərini "cəmiyyətin artıq siyasi mübarizəyə başlaması", "hakimiyyətə neqativ münasibətin ictimai hərəkata çevrilməsi"nin əlamətləri kimi qələmə vermək XXI əsrə arxaik siyasi təfəkkürlə gələnlərin əsas xarakterik düşüncə üsuludur. Cəmiyyətimiz sosial məsələlər barədə həmişə danışıb və danışmaqda davam edir. Zatən bunu dayandırmağa ehtiyac da yoxdur. Sosial məsələ barədə hər çıxışı, iradı, aksiyanı qızışan siyasi mübarizə hərəkatının əlaməti kimi qələmə vermək istəyənlər, deyəsən, Azərbaycanı "Manas"ın heykəli önünə toplaşaraq" 20-25 atlının köməyi ilə asan inqilabların edildiyi ölkələrin günündə təsəvvür edir. Halbuki, ölkədə sosial məzmunlu çıxışların ən klassik izahını dövlət başçısı İlham Əliyev özü verib:"Sosial problemlər haqda sizlər açıq danışdıqca mən onların daha düzgün həlli yollarını tapıram". Radikal dağıdıcı inqilabçının təfəkküründəki şişirdilmiş sosial mübarizə anlayışı hara, bu hara...

İslahatları nəticəsiz proses adlandıran radikallar əslində onun hansısa nəticələrindən əndişəli deyillər. Əndişə o tərəfdədir ki, həyata keçirilən islahatlar bəlli xarici dairələrin Azərbaycanda azad media, özünüifadə, toplaşma və insan haqları kimi gurultulu sözlər altında "sözəbaxan dövlət" yaratmaq yönümündəki manipulyasiyalarını heçə endirir.

### Sivil vətəndaş "ÇT"si yaratmaq istəyənlərin planı işləmir

Azad mətbuata, şəffaf QHT-lərə maliyyə yardımı adı altında idarə olunan "sivil vətəndaş ÇT-si" yaratmaq planları artıq işləmir. Bir vaxtlar Mehman Əliyev özü də kəsilmiş bu kanalların üstündə "fəal QHT və azad media" ideologiyasını geniş fırladanlardan biri idi. Bu nöqteyi-nəzərdən onun indiki KİVDF-ni yararsız bir qurum kimi təqdim etmək cəhdləri tam başadüşüləndir.

Mediamız heç bir vaxt indiki qədər mütəşəkkil olmayıb və bunun üçün KİVDF-yə, onun ideya müəlliflərinə borcludur. Medianın mütəşəkkilliyi dövlətçilyin yanında qərar tutmasıdır, dövlət və ictimai mənafeləri yeri gələndə hətta öz peşə maraqlarından da üstün tutmağı bacaracaq qədər vətənpərvər olmasıdır. Mehman Əliyev və onun kimi düşünənlər "media məhv olub" deyəndə, heç şübhəsiz ki, onun indiki mütəşəkkillliyini görmür, ya görmək istəmir, "güclü media" deyəndə isə sağa-sola, qabağa-arxaya məsuliyyətsizcəsinə döşəyərək dövlət mənafelərini arxa plana keçirən, ancaq bəlli əcnəbi fondlardan gələn maliyyə sahiblərinin postsovet sxemlərinə uyğunlaşmağı öz imperativinə çevirən medianı nəzərdə tuturlar. Belə mediaçılıq da, belə media da keçmişdə qaldı: öz dövlətinin yanında dura bilməyən medianın imkanlarını "güc" anlayışı ilə ifadə etmək olmaz. Bu sayaq media öz dövlətinin yanında olmaq kimi güc parametrləri kəsb edə bilmədiyi üçün yarı yolda qalır, qurda-quşa yem olur.

Media rəhbərlərinin ayrı-ayrı partiya sədrlərinin şəxsi iddialarına və siyasi kursuna xidmət etdiyi keçmişləri yada salaq. Mən o dövrün mediasında, qəzet oxucularının sayı çox olsa da, elə bir güc göstəricisi görmürəm. O zaman qəzet oxucularının say çoxluğu onunla bağlı idi ki, informasiya axtaranlar onu elə tək qəzetlərdən oxuyurdular. Nə demək istədiyim yəqin başa düşülür. O zamanların güclü sayılan mediasında əslində güc yox, hüdud tanımayan məsuliyyətsizlik, kor inadkarlıq, qısasçılıq, barışmazlıq, insanı obyektiv və soyuq başla düşünməkdən məhrum edən hər şey var idi. Əgər dostumuz Mehman Əliyev medianın gücünü bu cür anlayırsa, dəfn etdiyi "Turan" agentliyi onun son qəmi olsun.

O partiya sədrləri keçmişdə qaldı. Çünki doğru yolu tapa və dəyişə bilmədilər. Qəzetlər isə doğru və praqmatik prinsiplərlə dəyişə bildikləri üçün bu gün də yaşayır. KİVDF vaxtilə, "Turan" agentliyinin özü də daxil, bir neçə medianı maliyyələşdirən məlum beynəlxalq siyasi-maliyyə dairələrinin unikal alternatividir. Məsələ çox sadədir. Ölkədə çap mediasını dövlətin adından şəffaf maliyyələşdirən, kimə nə verdiyini açıq deyən (Mehman Əliyev 90-cı illərdən indiyədək "Turan"ın kimdən nə aldığını açıq deyə bilərmi?) KİVDF varsa, əcnəbi media sponsorlarına yer yoxdur. "KİVDF ləğv olunmalıdır" deyən Mehman Əliyevin bununla Azərbaycan mediasının üzünə hansı xaricilərin maliyyə qapılarını açmağa çalışdığını başa düşdünüzmü?

KİVDF olmasa, bu meydanı arxalarında hansısa əcnəbilərin dayandığı həmin maliyyəçilər tutacaq... Bu, mehman əliyevlərin istədiyi yoldur, KİVDF-nin və ümumən Azərbaycandakı islahatların isə öz yolu var. Hər kəs öz yolu ilə davam etsin...

---

# Sevan üzərində qurulmuş "Qərbdən pul qoparma oyunu" Ermənistanın öz əleyhinə işlədi...

**Sevan gölü Cənubi Qafqazın ən böyük gölüdür. Adıçəkilən göl dəniz səviyyəsindən 1900 metr yüksəklikdə yerləşir. Sahəsi 1200 kv.km. olan gölün ən dərin yeri 79,7 metrdir. Son vaxtlar gölün səthində yosunların sayı sürətlə artır. Ermənilər iddia edirlər ki, yaşıl və göy rəngli yosunlar xüsusi toksik maddə buraxaraq, suyun tərkibini və keyfiyyətini dəyişir.**



*Əli Orucov: "Ermənilər beynəlxalq donor təşkilatlarından vəsait qoparmaq üçün belə bir yalan uydurublar"*

Gölün bu gedişlə bataqlığa çevriləcəyini deyirlər. O da məlumdur ki, Ermənistan tərəfi gölün ekoloji vəziyyətinin pisləşməsi ilə bağlı hay-küy salaraq Qərbdən pul qoparmağa çalışır.

Bu günlərdə Sevan gölünün UNESCO-nun mədəni irs siyahısına daxil edilməsi ilə bağlı erməni tərəfi müraciət edib.

Ermənistan Zoologiya və Hidroekologiya İnstitutunun direktoru Boris Qabrielyan gölün ətrafında istirahət məkanlarının, restoranların və yaşayış məntəqələrinin mərkəzləşdirilmiş kanalizasiya sisteminin olmamasını, çirkab sularının gölə axıdılmasını, həmçinin, gölün suyundan xüsusən yayda suvarma, təsərrüfat işlərində qeyri-rasional istifadə edilməsini əsas təhlükələr siyahısına daxil edib.

Bu arada məlum olub ki, erməni tərəfinin apardığı kampaniya onların ziyanına işləyib. Belə ki, Sevana son günlər istirahət etməyə gələn turistlərin sayı kəskin azalıb. Bu səbəbdən iyulun 15-də sahibkarlar etiraz aksiyası keçiriblər. Sevanda istirahət mərkəzlərindən birinə rəhbərlik edən Şagen Asatryanın sözlərinə görə, gölün çirklənməsi ilə bağlı deyilənlər şişirdilmiş məlumatlardır. Onun fikrincə, məlum kampaniyadan sonra istirahətə gələnlərin sayı kəskin azalıb: "Bu il keçən il istirahət edənlərin yalnız 2 faizi Sevana gəlib. 2018-ci ildə boş yerlərimiz yox idi. İndi isə heç kim gəlmir. Deyirlər ki, Sevanda toksik maddə var. Elədirsə, o zaman göldə üzən uşaqlar niyə buna yoluxmurlar?

*"Nəticəsi isə əksinə olub və turistlərin gəlişinə ciddi mənfi təsir göstərib"*

Sevanın suları zəhərlənibsə, onda niyə Ararat vadisinə tökülür?".

Göründüyü kimi, ermənilərin Sevan gölü ətrafında qurduqları kampaniya onların əleyhinə işləyir.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, belə vəziyyətin yaranması hardasa gözlənilən idi: "Çünki ermənilər əksər hallarda öz qazdıqları quyuya özləri düşürlər. Onların toruna düşənlərin də sayı getdikcə azalmaqdadır. Ermənilərin Sevan adlandırdıqları Göyçə gölü Cənubi Qafqazın ən böyük göllərindən sayılır. Bu göl çox mənzərəlidir və suyu çirklənməyə məruz qalmayıb. Hələ Sovetlər dönəmində turistlər üçün cəlbedici məkan idi. Lakin ermənilərin hərisliyi ucbatından bu gölün resursları amansızcasına istismar edilsə də, çirkləndirilməsi o qədər də inandırıcı deyil. Çünki gölə hansısa güclü çirkab suları axıdılmır. Oranı çirkəndirəcək mədən işləri də yoxdur. Görünür, ermənilər beynəlxalq donor təşkilatlarından vəsait qoparmaq üçün belə bir yalan uydurublar. Nəticəsi də, göründüyü kimi, əksinə olub və turistlərin gəlişinə ciddi mənfi təsir göstərib. Bu isə xeyli pul itkisi deməkdir. Ermənistanın indiki çətin iqtisadi durumunda isə bu, heç də az itki deyil. Mənə elə gəlir ki, Sevan gölü ətrafında aparılan saxta kampaniya ermənilərin beynəlxalq müstəvidə biabır edəcək".

**Vidadi ORDAHALLI**

# Polis veteranları cinayətlərin açılması prosesinə necə qoşulur...

**Cinayətkarlıqla mübarizədə Azərbaycan polisi müsbət irəliləyişlərə nail olub. Son illər törədilən cinayətlərin polis tərəfindən üstünün "isti izlərlə" açılması halları geniş yayılıb. Polislərin cinayətkarlıqla apardıqları mübarizədə polis veteranları da onlara yaxından köməklik göstərirlər.**



***Şəmsəddin Əliyev:** "Daxili İşlər Nazirliyində Polis Veteranlar Şurası fəaliyyət göstərir və veteranlar da həmin şuranın üzvüdürlər"*

Daxili İşlər Nazirliyinin (DİN) yaydığı məlumata görə, bu il Azərbaycanda polis veteranlarının köməyi ilə 2564 cinayətin açılması təmin edilib.

DİN-dən verilən məlumata görə, polis veteranları yeniyetmə və gənclər arasında antinarkotik təbliğatın güclənməsi, dini radikalizmə qarşı mübarizə, azyaşlılar arasında erkən nikah və intihar hallarının qarşısının alınması məqsədilə ərazi polis orqanlarının rəhbərliyi və aidiyyəti xidmətlərin əməkdaşları ilə birgə müxtəlif təhsil müəssisələrində, DİN-in Polis Akademiyasında, eləcə də vətəndaşlarla görüşlər keçirərək hüquqi mövzularda maarifləndirmə işləri aparırlar. Onların təcrübəsi və peşəkarlığı cinayətlərin açılmasında mühüm rol oynayır.

Qeyd edilənə görə, ötən müddət ərzində polis veteranları şəxsi heyətlə təlim-tərbiyə işinin aparılmasına, gənc əməkdaşların peşə vərdişlərinin artırılmasına, onlarda dövlətə və dövlətçiliyə, anda, xidməti vəzifə borcuna sədaqət hissinin formalaşdırılmasına yönəlmiş tədbirlərdə də fəal iştirak ediblər. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsi, onların zərərli vərdişlərdən uzaq tutulması istiqamətində profilaktik xarakterli tədbirlərin həyata keçirilməsi də daim diqqətdə saxlanıb.

Polis veteranları cinayətkarlıqla mübarizəyə necə cəlb edilirlər?

"Polisə Dəstək" İctimai Birliyinin sədri, sabiq hüquq-mühafizə işçisi, polis veteranı Şəmsəddin Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, polis veteranları hər zaman cinayətkarlıqla mübarizə sahəsində polisin yanındadırlar. Polis veteranlarının polisə yardımının cəmiyyət üçün qapalı qalan tərəf olduğunu deyən Ş.Əliyevin sözlərinə görə, bəzi qruplar belə düşünürlər ki, polis təqaüdə çıxdıqdan sonra polis orqanları ilə əlaqəni tamamilə kəsir. "Veteran polislərin cinayətkarlıqla mübarizə sahəsində polisə göstərdiyi dəstək hər zaman ictimaiyyət üçün qapalı qalır. Bu pərdəarxası məsələdir. Bəziləri elə hesab edirlər ki, polislər təqaüdə çıxdıqdan sonra onların polislə heç bir təması, əlaqəsi olmur. Amma elə deyil. Daxili İşlər Nazirliyində Polis Veteranlar Şurası fəaliyyət göstərir və veteranlar da həmin şuranın üzvüdürlər. Bu da veteran polislərin cinayətkarlıqla mübarizədə polisə dəstək verməsini təmin edir. Bakının hər bir rayonunda, eləcə də rayonlarda Veteranlar Şurasının özəkləri var. Ərazi üzrə qeydiyyatda olan veteranlar polis orqanlarının rəhbərliyinin təşəbbüsü ilə cinayətkarlıqla mübarizəyə qatılırlar.

*"Polis veteranlarının məlumatlarından, təcrübəsindən yaxşı mənada istifadə edildikdə bağlı qalan saysız cinayətin üstü açılır"*

Onlar həm yaşadıqları ərazilərdə, həm də respublikanın bütün regionlarında cinayətkarlıqla bağlı kifayət qədər məlumata malik olan personalardır. Polis veteranlarının məlumat bazasından istifadə etmək lazımdır, edilir də. Görürsünüz ki, polis veteranlarının məlumatlarından, təcrübəsindən yaxşı mənada istifadə edildikdə bağlı qalan saysız cinayətin üstü açılır. Bu baxımdan, Azərbaycan Daxili İşlər Nazirliyi polis veteranlarının dəstəyindən faydalana bilər. Bu da cinayətkarlıqla mübarizədə öz sözünü deyir. Bu sahədə "Polisə Dəstək" İctimai Birliyinin də əməyi var" - deyə Ş.Əliyev qeyd etdi.

***İradə SARIYEVA***

# BDU rektorunun universitetlərarası piar rəqabəti təklifinə qarşı çıxanlar nə demək istəyir...

**Məlum olduğu kimi, Bakı Dövlət Universitetinin (BDU) rektoru Elçin Babayev "Ali təhsil müəssisələrində piar: strukturun və media ilə işin düzgün qurulması, hədəf auditoriyaları" mövzusunda konfransda çıxışı zamanı bir sıra məqamlara toxunub. Rektor bildirib ki, son aylar ərzində BDU-da aparılan dəyişikliklər hamı tərəfindən birmənalı qarşılanmır: "Buna açıq şəkildə müqavimət göstərənlər də var".**



***Məhərrəm Zülfüqarlı:** "Yeni rektorun məlum açıqlamasından belə başa düşdüm ki, bəzi universitetlər açıq rəqabətə yox, qara piara üstünlük verirlər"*

E.Babayevin sözlərinə görə, universitetlər piar sahəsində rəqabət aparmalıdır, amma bu rəqabət sağlam olmalıdır: "Təəssüflər olsun ki, bəzən bu rəqabət çərçivədən çıxır, istər-istəməz, digər söhbətlərin yaranmasına səbəb olur. Bu isə bizim Təhsil Nazirliyi sistemində apardığımız ümumi işə kölgə salır. Bu mənada mən universitetləri həmrəyliyə çağırıram. Təbii ki, hər bir universitetin özünəməxsus inkişaf strategiyası var. Amma bu strategiya ölkədə təhsilin, gəncliyin formalaşmasına xidmət etməlidir. Ümumilikdə, həmkarlar arasında müəyyən etik məsələləri də gözləmək lazımdır".

Bu il BDU-nun 100 ili qeyd olunduğunu xatırladan rektor qeyd edib ki, mətbuat və informasiya sahəsində işlərini yenidən qurmaq üçün digər təcrübələri öyrənirlər.

Qeyd edək ki, E.Babayev 4 aydır rektor təyin olunub. Bu müddət ərzində BDU-da bir sıra işlər görülüb. Laboratoriyalar və şöbələr birləşdirilib, yeni qurumlar yaradılıb və s.

Maraqlıdır, universitetlərin piar sahəsində rəqabətinin bəzən çərçivədən çıxması nə deməkdir?

*"Başqasına böhtan atmaq, başqasının reytinqini aşağı salmaq yolunu tuturlar"*

Sözügedən məsələyə aydınlıq gətirən tarix üzrə elmlər doktoru, təhsil sahəsi üzrə ekspert Məhərrəm Zülfüqarlı bununla bağlı bir sıra məqamlara toxundu: "Piar sözü ingilis sözündən götürülüb və mənası ictimaiyyətlə əlaqələr deməkdir. İctimaiyyətlə əlaqələri hər bir universitet qurmalıdır. Özü də reklamdan fərqli olaraq, piarda pul məsələsi yoxdur. Piar zamanı işi elə qururlar ki, əhali, ictimaiyyət özü müraciət edir həmin universitetə. Gərək universitetin reytinqi yüksək olsun. Yəni əhali universitetin müsbət cəhətlərini görməlidir və sonra ora gəlməlidir. BDU-nun yeni rektoru E.Babayevin məlum açıqlamasından belə başa düşdüm ki, bəzi universitetlər açıq rəqabətə yox, qara piara üstünlük verirlər. Yəni başqasına böhtan atmaq, başqasının reytinqini aşağı salmaq yolunu tuturlar.

Fikrimcə, BDU-nun yeni rektoru rəqabətin bəzən çərçivədən çıxmasını deyərkən, bu məqama eyham vurub. Mənə elə gəlir ki, universitetlər piar sahəsində rəqabət aparmalıdır, amma bu, qara piar formasında olmamalıdır. Hər bir ali məktəb mərdi-mərdanə öz təbliğat işini qurmalıdır. Digər tərəfdən, ortaya gərək müsbət iş qoyasan ki, sonra da piar aparasan".

***Vidadi ORDAHALLI***

**Qarpız mövsümünün hazırkı ən qızğın vaxtında bu məhsulun bir kilosu bazarlarda 40-50 qəpikdən satılır. Bostanlarda 20-25 qəpikdən təklif edilən qarpızın 1 kiloqramı satış məntəqələrində iki dəfə baha satılır. Alıcılar qiymətlərin ötən ilin eyni dövrü ilə müqayisədə baha olduğunu bildirirlər.**

*"Bunu ötən illə müqayisə edib demək ki, ötən ilə baxanda qarpız ucuzdur, bu cür yanaşma absurddur"*

# Nazirlik rəsmisinin qarpızın qiyməti ilə bağlı dediyi rəqəm çox mübahisəli qarşılandı...

***Vahid Məhərrəmov:** "Keçən il də qiymət baha idi, bu il də"*



Qeyd edək ki, ötən il və ondan qabaqkı illərdə qarpız hətta 20-25 qəpiyə satılırdı. Yemişin qiyməti isə kilosu 60 qəpikdən başlayır və 2 manata qədər yüksəlir.

Bu arada Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin müdiri Vüqar Hüseynov mətbuata açıqlamasında bildirib ki, paytaxt və bölgələrdə qarpızın qiyməti ötən ilin müvafiq dövrü ilə müqayisədə iki dəfə ucuzdur: "Hazırda qarpızın sahələrdən alış qiyməti 21-25 qəpik, paytaxt və böyük şəhərlərdə pərakəndə satış qiyməti 35-45 qəpikdir. Ötən il iyul ayında qarpızın pərakəndə satış qiyməti 70-90 qəpik təşkil edirdi. Hazırda bazarlara çıxarılan qarpız istixana şəraitində yetişdirilmiş yerli məhsuldur. Açıq sahələrdən qarpızın kütləvi yığımına yaxın günlərdə başlanacaq. Buna bir müddətdir bölgələrdə davam edən yağıntılı hava şəraiti mane olur. Bazara təklifin artması ilə qiymətlərdə ucuzlaşma olacağı gözlənir".

Nazirlik rəsmisi onu da əlavə edib ki, 2018-ci illə müqayisədə bu il daha 300 hektar artıq sahədə qarpız əkilib, ümumilikdə, qarpız sahələrinin həcmi 15100 hektar təşkil edir.

Maraqlıdır, qarpızın qiymətinin ötən ilin eyni dövrü ilə müqayisədə iki dəfə ucuz olması ilə bağlı deyilənlər nə dərəcədə realdır? Doğrudanmı ötən illə müqayisədə qarpız iki dəfə ucuzdur?

Məsələyə münasibət bildirən kənd təsərrüfatı sahəsi üzrə mütəxəssis Vahid Məhərrəmov qarpızın qiyməti ilə bağlı deyilənlərlə razılaşmadı. Onun fikrincə, ötən ilin eyni dövrü ilə müqayisədə qarpız ucuz deyil: "Bu cür məlumatlar insanlarda çaşqınlıq yaradır. Sanki belə rəy yaranır ki, insanların yaddaşı zəifləyib. Ötən il bəli, qarpız istehsalı az idi. Ona görə ki, qarpız əkilən ərazilərdə pambıq becərilirdi. Bu səbəbdən qarpız əkinləri azalmışdı. Ancaq ötən il bu vaxtlar qarpızın qiyməti təxminən indiki kimi idi. Yəni qiymət 35-40 qəpik arasında dəyişirdi. İndi də elədir. Mən özüm bazarlarda oldum. Biz Kənd Təsərrüfatı Nazirliyindən fərqli olaraq aybaay, on gündən bir monitorinq aparırıq və qeyd edirik. Keçən il də qiymət baha idi, bu il də. Əslində, iqlim dəyişikliyi nəticəsində məhsul istehsalı 20-25 gün irəli çəkilib, xüsusən də qarpız istehsalı.

Biz indi avqust ayında görəcəyik ki, indi yığılan qarpız yeməli olmayacaq. Ona görə ki, xarrayacaq. Lap əvvəllər qarpız avqust ayında yaxşı yetişirdi, indi isə iyul ayında. Ona görə də indi qarpızın qiyməti 15-20 qəpikdən baha olmamalı idi. Ancaq təəssüflər olsun ki, bu gün qiymət iki dəfə bahadır. Bunu ötən illə müqayisə edib demək ki, keçən ilə baxanda qarpız ucuzdur, bu cür yanaşma absurddur. İnsanlar belə açıqlamalara inanmaz".

***Vidadi ORDAHALLI***

**Azərbaycan istehsalı məhsulların bir qismi xarici ölkələrə ixrac olunur. İxrac olunan məhsullar arasında aqrar məhsullar üstünlük təşkil edir. Bəzi hallarda isə ixrac olunan məhsullar müəyyən səbəblərdən geri qaytarılır. Elə bu yaxınlarda Rusiya Federasiyasına ixrac edilən Azərbaycan məhsulları geri qaytarıldı.**

***Natiq Cəfərli:** "Geri qaytarılan məhsul istifadəyə yararlıdırsa, daxili bazarda satışa çıxarılır, ya da konserv zavodlarına emal üçün təhvil verilir"*

***Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi:** "Beynəlxalq qaydalara uyğun olaraq, yükdə karantin tətbiq edilən zərərli orqanizmlər aşkar edildikdə yük zərərsizləşdirilərək yenidən müxtəlif istiqamətlərdə ixracı həyata keçirilə bilər"*

# Bəzən müxtəlif ölkələrdən geri qaytarılan aqrar məhsullarımızın son taleyi necə olur...



Rusiya Federasiyasının Baytarlıq və Fitosanitar Nəzarət üzrə Federal Xidməti Azərbaycandan Rusiyaya ixrac edilən 32,3 ton pomidor, 53,4 ton gilas, 19,92 ton quru noxud və 13 ton çiyələyin idxalına qadağa qoyduğuna dair məlumat yayıb. Azərbaycandan ixrac olunan həmin məhsullar geri qaytarıldı. Maraqlıdır, xarici ölkələrə ixrac olunan məhsullar müəyyən səbəblərdən geri qaytarılarsa, o zaman həmin malların taleyi necə olur?

Bu məsələ ilə bağlı Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin nümayəndəsi bildirdi ki, fitosanitar tədbirlər üzrə 13 nömrəli Beynəlxalq Standartın tələbinə əsasən, uyğunsuzluq aşkar edildiyi təqdirdə idxalçı ölkə ixracatçı ölkəyə dərhal rəsmi bildiriş verir: "Ümumiyyətlə, idxal-ixrac proseslərində bu cür halların baş verməsi mümkündür, lakin beynəlxalq qaydalara uyğun olaraq, yükdə karantin tətbiq edilən zərərli orqanizmlər aşkar edildikdə yük zərərsizləşdirilərək yenidən müxtəlif istiqamətlərdə ixracı həyata keçirilə bilər".

İqtisadçı-ekspert Natiq Cəfərli bildirdi ki, ixrac olunan məhsullar arasında kənd təsərrüfatı məhsulları üstünlük təşkil edir: "Nəzərə almaq lazımdır ki, aqrar məhsullar daha tez xarab olduğu üçün, başqa ölkələrə ixrac oluna bilmir.

**Havalar isti keçdiyi dönəmdə isə kənd təsərrüfatı məhsullarının daha tez xarab olmaq kimi xüsusiyyəti var. Məhsulların vəziyyətinə uyğun olaraq qərar verilir. Geri qaytarılan məhsul istifadəyə yararlıdırsa, daxili bazarda satışa çıxarılır, ya da konserv zavodlarına emal üçün təhvil verilir".**

***Günel CƏLİLOVA***

# Məktəb uşaqlarını imtahanlarda belə görmüşdük, indi təhsilli müəllimlər imtahana "gizli köməkçilərlə" gəlir...

**Müstəqilliyimizin və dövlətimizin inkişafının mühüm şərtlərindən biri mükəmməl təhsil sisteminə malik olmaqdır. Respublikamızda həyata keçirilən təhsil islahatının məqsədi yaradıcı və tənqidi düşünməyi bacaran, fəal şəxsiyyət yetişdirməkdir. İlk növbədə müəllim bacarıqlı, işgüzar, ixtisasını dərindən bilən, müəllimlik adını müqəddəs tutan, ideyaca saf, mənəviyyatca pak, özünə və şagirdlərinə qarşı tələbkar, sənətinə ürəkdən bağlı keyfiyyətləri özündə cəmləşdirməlidir.**



## *Kamran Əsədov: "Hazırda təhsil sistemində diplomu dövlət nümunəli olmayan müəllimlər var"*

Pedaqogika ixtisasını bitirənlər müəllim olmaq üçün imtahan verməlidirlər. Bu proses artıq neçə ildir tətbiq olunur. Cari il iyulun 8-dən etibarən Təhsil Nazirliyi müəllimlərin işə qəbulu üzrə imtahan keçirir. Bu müddət ərzində bir sıra fənlər üzrə müəllimlər işə qəbul olunmaq üçün imtahan verib və verəcəklər. Müəllimlərin işə qəbul imtahanlarında ən çox yol verdiyi pozuntular aşkar olunub.

Təhsil Nazirliyinin İnsan Resursları Mərkəzinin müdir əvəzi Murad Camalzadə media nümayəndələrinə açıqlamasında qeyd edib ki, iyulun 8-dən bu günə kimi nəticələri ləğv edilən namizədlərin sayı 5-dən artıq deyil: "İndiyə qədər 15 mindən artıq namizəd imtahan verib. Cəmi 5 nəfərin nəticələri ləğv edilib. Bu da çox yaxşı nəticədir. Hər hansı namizəd imtahan qaydalarını pozarsa, ona bir necə dəfə xəbərdarlıq edilir. Bu xəbərdarlıqlar nəticə vermirsə, o zaman namizədin yeri başqa masaya dəyişdirilir ki, yanındakına narahatlıq törətməsin və köçürülmə halları olmasın. Adətən, ən çox tətbiq edilən intizam tənbehi üsuludur. Ən son həll yolu namizədin imtahandan kənarlaşdırılmasıdır. Bu halların sayı da azdır".

M.Camalzadənin sözlərinə görə, namizədlərin bəzisi imtahan zalına qulaqcıq vasitəsilə daxil olub və bu aşkar edilərək həmin fakt aktlaşdırılıb: "Bundan sonra namizəd imtahan prosesindən kənarlaşdırılaraq nəticəsi ləğv edilib. Beş faktdan biri bu idi. Yaxud qadağan olunan ədəbiyyat və texniki vasitələrdən gizli yollarla istifadəyə cəhd halları da qeydə alınıb. Təəssüf ki, elə hallara da rast gəlinir ki, imtahana gələn şəxs özünü başqa namizəd kimi təqdim edərək onun şəxsiyyət vəsiqəsi ilə qeydiyyatdan keçmək istəyib. Onların heç biri imtahana buraxılmayıb. Müvafiq sənədləşmə işləri aparılıb və onlar geri qaytarılıb".

Bakalavr təhsili almış şəxsin imtahana qulaqcıqla gəlməsi təəssüf doğurur. Nəzərə almaq lazımdır ki, təxminən 21-22 yaşlarında olan şəxs ali məktəbi bitirir. Pedaqogika təhsili alan şəxs gələcəkdə müəllim olub şagirdlərinə təhsil, təlim-tərbiyə verəcək. Orta məktəbi bitirmiş abituriyent imtahana qulaqcıqla gəlsə idi, deyərdilər ki, gəncdir, dərk etmir, ancaq ali məktəbi bitirmiş yetkin bir şəxsin zala qulaqcıqla daxil olması başadüşülən deyil.

*"Bəzi hallarda bu müəllimlərin bilikləri aşağı olduğuna görə tam hazırlaşa bilmirlər və nəticədə..."*

Təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycanda indiyə qədər müəllimlərin normal attestasiyası keçirilməyib: "Qərbdə müəllim üçün 2 diplom vacibdir. Universitet hazırlığı diplomu və peşəkar yararlılıq diplomu. Bu baxımdan, sertifikasiya daha önəmlidir. Pedaqoji işçilərin sertifikasiyası onların peşəkar kompetensiyalarının daxili qiymətləndirilməsidir və müəllimin sosial statusunun yüksəldilməsinə xidmət edir. 2014-2017-ci illərdə Təhsil Nazirliyi tərəfindən həyata keçirilən diaqnostik qiymətləndirmə çox ağıllı addım idi. Bunun sertifikasiya prosesinə köməyi olacaq. Digər tərəfdən, Qərbdə müəllimlərin təkmilləşməsi həmişə gündəmdə olan məsələdir. Təkmilləşmə sertifikasiya prosesinin həyata keçirilməsinə yardımçı olur. Burada dərs deyən müəllimin bakalavr, yaxud magistr ali təhsilli olması da önəm kəsb edir. Məsələn, Finlandiyada yalnız magistr pilləsini bitirən şəxslər dərs demək hüququna malikdirlər. Sertifikasiyalaşma anlayışı sonradan düşünüldü və bu, formal xarakter daşımasa, yaxşı nəticələr verə bilər. Bizim müəllimlər onların imtahana çəkilməsindən narahat olurlar. Ona görə də imtahan prosesində qanunsuz hallara yol verirlər.

Müəllimlər formal olaraq 1995-ci ildə attestasiyadan keçirilib. Lakin bunun heç bir effekti olmadı. Həmin ildən düz 2014-cü ilə qədər bu məsələyə qayıtmayıblar. Attestasiya keçirilsəydi, məktəblərdə işləyən 2000-dən çox saxta diplomlu müəllim aşkar olunardı. Lakin saxta diplom verənlər buna maneçilik törədə bildilər. Hazırda təhsil sistemində diplomu dövlət nümunəli olmayan müəllimlər var.

Biz dünyanın heç bir ölkəsində, hətta uzaq Afrika ölkələrində belə bizdə olan kimi neqativ halları görə bilmərik.

Bəzi hallarda bu, müəllimlərin biliklərinin aşağı olmasına görə baş verir. Onlar yaxşı hazırlaşa bilmirlər və nəticədə bu yola əl atırlar.

Hesab edirəm ki, neqativ hallara yol verən müəllimlərin bir neçə il ərzində imtahanlarda iştirakına məhdudiyyətlər tətbiq etməklə belə halların qarşısını ala bilərik".

***Günel CƏLİLOVA***

# "Azərbaycanın Bütövlüyü Uğrunda" İctimai Birliyi "Azərbaycançılıq və hərbi vətənpərvərlik ideyalarının gənclər arasında təbliği" layihəsi çərçivəsində növbəti tədbirini keçirdi...

**"Azərbaycanın Bütövlüyü Uğrunda" İctimai Birliyi (ABUİB) Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirdiyi "Azərbaycançılıq və hərbi vətənpərvərlik ideyalarının gənclər arasında təbliği" adlı layihəsi çərçivəsində növbəti tədbirini keçirib.**




Beynəlxalq Mətbuat Mərkəzində baş tutan tədbirdə İctimai Birliyin təmsilçiləri, ekspertlər, kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edib. Tədbiri giriş sözü ilə açan Xalidə Qafarova sözügedən layihə, onun məqsəd və məramı barədə qısa məlumat verib.

Daha sonra çıxış edən "Azərbaycançılıq və hərbi vətənpərvərlik ideyalarının gənclər arasında təbliği" adlı layihənin eksperti Süleyman İsmayılbəyli layihənin icra müddəti və ötən müddət ərzində görülmüş işlər, həyata keçirilən tədbirlər barədə məlumat verib. Bildirib ki, 3 ay müddətində icrası nəzərdə tutulan layihə çərçivəsində ötən müddət ərzində bir sıra tədbirlər həyata keçirilib.

Süleyman İsmayılbəyli deyib ki, layihəyə may ayının 15-dən start verilib və artıq layihə yekunlaşmaq üzrədir. Ekspert deyib ki, Azərbaycan müharibə şəraitində olduğundan, torpaqlarımızın 20 faizi işğala məruz qaldığından gənclər daha çox vətənpərvər olmalı, bu ruhda böyüyüb, tərbiyə olunmalıdır: "Təsadüfi deyil ki, dövlət gənclər siyasətində də qeyd etdiyimiz nüans əsas istiqamətlərdən biri kimi qeyd edilir. Vətənpərvər olmaq, həm də azərbaycançı olmaq deməkdir. Çünki vətənpərvər olmayan biri deyə bilməz ki, azərbaycançıyam. Bu iki məhfum bir-birinə sıx bağlıdır".

Daha sonra çıxış edən layihənin eksperti Alim Hüseynli də "Azərbaycançılıq və hərbi vətənpərvərlik ideyalarının gənclər arasında təbliği" adlı layihənin əhəmiyyətindən danışıb. Bildirib ki, sözügedən mövzu günümüz üçün kifayət qədər aktualdır və "Azərbaycanın Bütövlüyü Uğrunda" İctimai Birliyinin də bu mövzuya toxunması təsadüfi deyil. Çünki İctimai Birlik fəaliyyəti dövründə hər zaman günümüz üçün vacib, prioritet məsələlərə toxunub, bu istiqamətdə müxtəlif layihələr reallaşdırıb. Alim Hüseynli çıxışında əsas diqqəti azərbaycançılıq ideologiyasına çəkib və bildirib ki, uzun illər ərzində formalaşaraq insanların şüurunda həkk olunan ictimai dəyərlər dövlətin və cəmiyyətin inkişafında mühüm rol oynayır. Onun sözlərinə görə, dövlətin və cəmiyyətin gələcək inkişafı həmin dəyərlər üzərində formalaşan vahid ideologiyadan asılı olur: "Vahid ideologiya olmadıqda isə yaranmış boşluq dövlətin inkişafında bir əngələ çevrilir. Belə bir boşluq Azərbaycan müstəqillik əldə etdiyi ilk illərdə müşahidə olunurdu. Uzun illər hakim olmuş kommunizm ideologiyasının süqutundan sonra yeni qurulan dövlətin əsasları insanlar tərəfindən aydın qəbul edilmirdi. Məhz buna görə Azərbaycanın ümummilli lideri Heydər Əliyev 1993-cü ildə Azərbaycan cəmiyyətinin inkişafının ideya təməli olan azərbaycançılıq konsepsiyasını irəli sürdü. Etiraf edək ki, azərbaycançılığın bütün dünya azərbaycanlılarını birləşdirən ümummilli ideologiya halına gəlməsi, müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevrilməsi ulu öndər Heydər Əliyevin tarixi xidmətidir.

Ekspertlərin çıxışlarından sonra jurnalistləri maraqlandıran suallara cavab verilib. Müzakirələr çay süfrəsi ətrafında davam edib.

***Süleyman***

**Azərbaycanda avtoyuma məntəqələrindən maşınların qaçırılması barədə xəbərlər tez-tez eşidilir. Eləcə də maşınlardan hansısa əşyaların oğurlanması halları da olur. Belə olduqda sürücülər maşını yuyulmağa verdikdə orada gözləsələr, daha yaxşı olar. Bəzi hallarda isə sürücü avtomobilin açarını avtoyuma məntəqələrində çalışan şəxslərə verib, bir saata qayıdıb maşını təhvil götürəcəyini deyir.**



# "Moyka"larda işləyənlərin müştəri avtomobili qaçırması hallarına xeyli vaxt idi rast gəlinmirdi...

***İlqar Hüseynli:** "Avtoyuma məntəqələrinin bəzisində çalışan gənclərin bir qismi nə etdiklərinin fərqinə varmadan "moyka"dan maşın qaçırırlar"*

Fürsətdən istifadə edən bəzi işbazlar avtomobilin açarının onda olmasından yararlanaraq həmin minik vasitəsilə "avtoşluq" etməyə başlayırlar. "Moyka"dan qaçırılan avtomobillər tərəfindən törədilən qəzalar dəfələrlə ictimaiyyətə açıqlanıb.

Bu günlərdə Baş Dövlət Yol Polisi İdarəsi avtomobil sahiblərinə mövzu ilə bağlı müraciət edib.

İdarənin yaydığı məlumatda qeyd olunur ki, bir çox hallarda avtomobil sahibləri təmir və ya avtoyuma xidmətlərindən istifadə edərkən nəqliyyat vasitəsinin açarlarını da məntəqə işçilərinə verərək oranı tərk edirlər. Belə hallar isə bəzən həmin məntəqələrdə çalışan və adətən gənc, hərəkətlərinin məsuliyyətinin fərqinə varmayan bir sıra insanlara sahibi yanında olmayan nəqliyyat vasitələrindən qanunsuz istifadə etmək fürsəti yaradır: "Müştərilərin etibarından sui-istifadə etməklə yanaşı, qanunvericiliyin də tələblərini kobud şəkildə pozaraq onlara həvalə edilmiş avtomobili qaçıraraq idarə edən belə gənclər tərəfindən bir sıra hallarda insanların həlak olması, yaralanması ilə nəticələnən ağır yol-nəqliyyat hadisələri törədilir. Bununla yanaşı, bəzən xidmət göstərməli olduqları nəqliyyat vasitələrindən oğurluq edən, onlardan öz əmlakı kimi istifadə edən şəxslərə də rast gəlinir. Odur ki, avtomobil sahiblərinə müraciət edərək tövsiyə edirik ki, təmir və ya avtoyuma məntəqələrinin xidmətlərindən istifadə edərkən mümkün qədər məntəqəyə yaxın ərazidə olmağa çalışın, avtomobilinizi təsadüfi deyil, tanıdığınız, məsuliyyətli, peşəkar insanlara etibar edin".

*"Maşın sahibləri avtomobil təmizlənərkən avtoyuma məntəqəsində olsunlar"*

Qeyd edək ki, "moyka"lardan avtomobillərin qaçırılması cinayət hadisəsi olmaqla yanaşı, bu işi edən şəxs minik vasitəsini yüksək sürətlə idarə edərək öz həyatını risqə atır.

Sosial sahə üzrə ekspert İlqar Hüseynli bildirdi ki, avtoyuma məntəqələrinin bəzisində çalışan gənclərin bir qismi nə etdiklərinin fərqinə varmadan "moyka"dan maşın qaçırır: "Həmin gənclər elə bilirlər ki, kimsə avtomobolinin yuyulması üçün açarı onlara təhvil veribsə, onlar maşından necə gəldi istifadə edə bilərlər. Bəzi hallarda, avtomobildən nəsə oğurlayırlar. Daha pis halda isə həmin maşını istədikləri kimi idarə edirlər. Hətta bəziləri avtomobili yüksək sürətlə idarə etdiyinə görə qəza hadisəsi törədirlər. Bu kimi hadisələr dəfələrlə qeydə alınıb.

Bir neçə il əvvəl avtomobil sahibi maşınının təmizlənməsi üçün onu moykaya verib və orada dayanmayaraq açarı da işçilərə təhvil verib harasa gedib. Sonra həmin şəxs maşında videokamera vasitəsilə "moyka"da çalışan gənc bir oğlanın avtomobili çalaçuxur yollarda yüksək sürətlə sürdüyünü müşahidə etmişdi. Daha sonra minik vasitəsinin sahibi həmin görüntünü sosial şəbəkədə yaymışdı ki, "moyka"da çalışanlar avtomobilin başına nə cür "oyunlar açırlar".

Həmsöhbətimiz tövsiyə edir ki, maşın sahibləri avtomobil təmizlənərkən avtoyuma məntəqəsində olsunlar.

***Günel CƏLİLOVA***

**Biz qadın gözəllik salonlarında qadın ustaları görməyi adət etmişik. Lakin son illər Bakıda fəaliyyət göstərən qadın gözəllik salonlarında oğlan ustaları da görməyə başlamışıq. Bu gün elə gözəllik studiyaları var ki, orada yalnız oğlanlar işləyir və qadınların saç kəsimi, "ukladka"sı, makiyajı bu oğlanların əlindən gəlib keçir.**



# At izi it izinə qarışıb - Bakıda oğlan uşaqları qadın gözəllik salonlarında işləyir, oğlan uşaqları makiyaj edilir...

***Könül Vaqifqızı:** "Oğlanların makiyaj etməsi, eyni zamanda da qadın gözəllik salonlarında işləməsi onların psixikasında baş verən dəyişikliklərlə bağlıdır"*

Oğlanların qadın gözəllik salonlarında işləməyə maraq göstərməsi bizə təəccüblü gəlsə də, onların xidmətindən yararlanan qadınların sayı günü-gündən artmaqdadır.

Bu oğlanlar qadın gözəlliyini cilalayan bütün prosesləri həyata keçirə bilirlər. Bu azmış kimi, bu gün bəzi yeniyetmə və gənc oğlanların özlərinin qız kimi bəzənməsinin, makiyaj etməsinin də şahidi oluruq. Hətta bəzi məktəbli oğlanların özlərini makiyaj etdikləri vəziyyətdə videorolikləri də sosial şəbəkələrdə yer almaqdadır. Təəssüflər olsun ki, makiyajlı oğlanlar bu hərəkətlərin başqa həmcinsləri tərəfindən də təkrarlanmasına çalışırlar. Bunu o şəkildə təbliğ edirlər ki, bəzən başqalarını da öz torlarına salmağa nail olurlar. Oğlanların qadın gözəllik salonlarında işləməyə maraq göstərməsinin arxasında nələrin durduğu aydındır. Biz görmüşük ki, oğlanlar kişi salonlarında işləyər və onlar kişilərin saçlarını qırxar, formaya salar.

Ekspertlər bildirirlər ki, gözəllik salonlarında işləyən oğlan uşaqlarının böyük əksəriyyəti özünü stilist kimi qələmə verir. Əslində isə onlar manikür, pedikür, makiyaj, saç düzümü ilə məşğul olurlar. Oğlanların qadın gözllik studiyalarında işləmələri sosial sifariş deyil, bu tamamilə psixoloji məsələdir.

Psixoloq Könül Vaqifqızı bizimlə söhbətində bildirdi ki, belə oğlanların çoxu yeniyetməlik çağlarında psixikası zədələnənlərdir. Onun sözlərinə görə, onların bu cür məşğuliyyətə meyl etməsinin kökündə əsasən analarının onları uşaqlıqdan gözəllik salonlarına aparması, daha çox qadınlarla ünsiyyətdə olmasına şərait yaratması səbəbi dayanır. Bu oğlanların çoxunda kişi deyil, qadın xarakterlərinin üstün olduğunu bildirən ekspert hesab edir ki, onlar uşaqlıqdan bu sahəyə yönləndiriliblər. "Elə sahələr var ki, orada ancaq qadının iştirakı vacibdir. Ancaq bəzən görürsən ki, qadına aid işləri oğlanlar görür. Əvvəllər gözəllik salonlarında oğlan uşaqları, ümumiyyətlə, görünməzdi, lakin indi təəssüf ki, oğlanlar da salonlarda işləyirlər. Bu da onunla bağlıdır ki, analar oğlan uşağını yanlarına salıb gözəllik salonlarına aparırlar. Oğlan futbol oynamalı halda, gedib saatlarla gözəllik salonunda oturur. Bu kimi məqamlar onun psixikasına təsir göstərir. Bu gün stilist adı ilə fəaliyyət göstərən saysız oğlan var ki, onlar qadın bəzəməklə məşğuldur. Onu da deyim ki, ən yaxşı ustalar da elə kişilərdir. Siz o kişilərə baxsanız, ünsiyyətdə olsanız, qarşınızdakının kişi olmadığını hiss edərsiniz. Çoxunun davranışları qadın davranışıdır".

*"Əvvəllər gözəllik salonlarında oğlan uşaqları, ümumiyyətlə, görünməzdi, lakin indi təəssüf ki, oğlanlar da salonlarda işləyirlər"*

K.Vaqifqızı qeyd etdi ki, Azərbaycanda oğlan uşaqlarının gözəllik salonlarında işləməsinə şəraiti həm də türkiyəli ustaların Azərbaycanda açdığı gözəllik salonları yaradıb. "Bakıda kifayət qədər salon vardı ki, orada türkiyəli oğlanlar qadınlara bu şəkildə xidmət göstərirdilər. Bizim bəzi oğlanlar da onlara baxıb qadın gözəllik salonlarında işləməyə başladılar. Hansından soruşursan ki, saç kəsməyi, makiyaj etməyi kimdən öyrənmisən? Deyir ki, filan türkiyəli ustadan. Bu gün bəzi oğlanlar özləri də həmin gözəllik salonlarında bəzənməyə gedirlər. Bu sırf psixoloji məsələdir. Oğlanların makiyaj etməsi, eyni zamanda da qadın gözəllik salonlarında işləməsi onların psixikasında baş verən dəyişikliklərlə bağlıdır" - deyə müsahibimiz vurğuladı.

***Leyla QARAXANLI***

# Bakı kəndləri - tarixlərə şahid qədim Qala kəndi...

*"Hər bir xalqın mədəni irsi onun milli sərvəti, tarixi və bu günüdür. Bizim borcumuz, gələcək nəsillərin borcu tarixi keçmişimizə, ənənələrimizə, milli nailiyyətlərimizə hörmət etməkdən, onları qoruyub saxlamaqdan ibarətdir".*

***Heydər Əliyev***

**Prezident İ.Əliyev deyib: "Xalçaçılıq sənəti Azərbaycan mədəniyyətinin bir hissəsidir. Xalçaçılıq sənəti hər bir azərbaycanlı üçün çox doğma, əziz sənətdir və hər bir azərbaycanlı həyatını xalçasız təsəvvür edə bilmir. Qədim dövrlərdən xalçaçılıq sənəti Azərbaycanda yaşayır və inkişaf edir. Azərbaycanda birinci xalçalar eramızdan əvvəl toxunub. Azərbaycan xalçası öz gözəlliyi, keyfiyyəti ilə həmişə seçilib".**

*(Əvvəli ötən saylarımızda)*

Şərq ölkələrində olduğu kimi, Azərbaycanda da əsrlər boyu xalça və xalça məmulatı başlıca var-dövlət göstəricisi hesab edilib, bu gün də belədir. Müxtəlif xalçalar, zililər, kilimlər, palazlar, məfrəşlər evimizin, sarayların, xanəgahların, məscidlərin, karvansaraların bəzədilməsində həmişə başlıca element olub.

XVII-XVIII əsrlərdə Abşeronda bədii sənətkarlıq yüksək səviyyədə inkişaf etmişdi. Xalçaçılıq sənəti bu sahədə daha böyük tərəqqiyə çatmışdı. Abşeronda evlərin bəzədilməsində xalça və xalça məmulatlarına xüsusi yer verildiyini bir sıra əcnəbi səyyahlar xüsusən qeyd ediblər.1607-ci ildə katolik rahibi Karmelit Bakıda olarkən xanın evində döşəmənin başdan-başa qiymətli xalılarla bəzədilməsi barədə bəhs edirdi. 1733-cü ildə Bakıya və ətraf kəndlərə səyahət etmiş səyyah İ.Lerx də Zirə kəndində olarkən orada çox gözəl, qiymətli xalçalar gördüyünü yazır.

Xalça məmulatı üçün lazım olan hər cür xammal Abşeronda kifayət qədər var idi. Burada çoxlu qoyun sürüləri, dəvə saxlanılır və qismən də pambıq əkilirdi.

Hazırda muzeylərdə və evlərdə XVIII-XIX əsrlərdə Bakıda və Abşeronun ayrı-ayrı kəndlərində toxunan xeyli sayda xalça və xalça məmulatı qalmaqdadır. Moskvanın Dövlət Tarix Muzeyində Xilədə (Əmircan) toxunan (1,0x1,80 sm) "Xilə-buta" xalçası, Azərbaycan Dövlət Milli Tarix muzeyində qorunan, toxunma tarixi XVIII əsrə aid edilən "Buta" (Suraxanı kəndi) xalçası Abşeronun ən yaxşı xalça nümunələrindən sayılır. Ümumiyyətlə, Xilə (Əmircan), Suraxanı və Qala kəndləri öz keyfiyyətli, yaraşıqlı xalçaları ilə daha çox fərqlənirdi. II Şah Abbasın (1646-cı il) və Şah Süleymanın (1667-ci il) XVII əsrə aid fərmanlarında ("Bibi-heybət şeyxləri haqqında") "dəzgah başı"adlı vergi növünün adı çəkilir. O vaxtlar Abşeronda xalçaçılıq karxanalarından "dəzgah-başı"adlı vergi yığılardı. Xilədə, Suraxanıda, Novxanıda, Qalada, Fatmayıda, Goradildə, Xızıda, Bülbülədə və s. kəndlərdə, həmçinin Bakı şəhərində onlarla xalçaçılıq karxanası fəaliyyət göstərirdi. Yuxarıda göstərilən muzeylərdə nümayiş etdirilən xalça nümunələri də məhz bu cür karxanalarda toxunmuşdu. Həmin xalçanın yuxarı hissəsində ərəb hürüfatı ilə "Karxaneyi-Xilə" yazılıb və xalçanın toxunma tarixi olan hicri 1218 (miladi 1803) qeyd edilib.

Bundan əlavə, yüzlərlə fərdi xalçaçılar da fəaliyyət göstərirdilər. Onların toxuduğu xalçalar və xalça məmulatı nümunələri bu günə qədər bəzi evlərin ən yaxşı, ən bahalı bəzəyi kimi qayğı iıə mühafizə olunur.

Abşeronda dəvə yunundan toxunan xalçalar daha yüksək qiymətləndirilirdi. Etnoqrafik materiallar göstərir ki, Abşeronda ən çox "buta", "xilə-buta", "Xilə-əfşan", "Yelənli xalça", "Piskəndə","Çaxmaq", "Toyuqayağı", "Cığcığ", "Qızıl gül", "Gülmöhrə" və s. kimi xalçalar , "Pitikli", "Muncuqmuncuq","taxta-taxta" və digər palazlar, həmçinin namazlıq, kandarlıq, cecim və başqa döşənəcəklərin toxunuşu geniş yayılıb. Mütəxəssislər təsdiq edirlər ki, Əmircan və Qala kəndləri Abşeron xalçaçılığının əsas ocaqları olub. Bu kəndlərdə toxunan çeşid-çeşid döşənəcəklər ümumazərbaycan miqyasında özünəməxsus layiqli yer tutub. Ətraf kəndlərdə belə bir deyim geniş yayılmışdı ki, "qız alanda Qaladan al, çünki onlar sənətkar olur".

Ötən əsrin 30-40-cı illərində Bakının Qala kəndində Göhərnisə, Əsli, Məsməxanım, Qızbacı və s. kimi tanınmış xalçaçılar olub. Belə usta sənətkarların toxuduğu çeşid-çeşid xalça və xalça məmulatları bu gün də Abşeron evlərinin bəzəyidir.

Etnoqrafik materiallar göstərir ki, XX əsrin 40-50-ci illərinə qədər Abşeron kəndlərində "xana uzatma" ənənəsi olub. Bu ənənə belə keçirilirdi: xalça üçün yun əyrilib hazır olandan sonra nişanlı qızın anası öz qudasına (adaxlı oğlanın anasına) xəbər göndərir ki, "mən "xanabaşı" eyləyirəm (yəni xana uzadıram,toxuyuram), sən də gəl". Bundan sonra, ənənəyə görə, oğlanın anası xonça tutub bir neçə qohum arvadla qudasıgilə gələrdi. Xalça toxunması üçün qudanın imkanı olmazdısa, "yançı" (köməkçi) yəni muzdlu xalçatoxuyan göndərərdi.

Kənd əhalisi balıqçılıqla da (bəzi sakinlərin vətəgələri də olub) məşğul olmaqla, ipəkçilik, pambıqçılıq, tütünçülüyə də əmək sərf edib. Qala kəndində bir sıra sənət sahələri də inkişaf edib. Qalanın dəmirçiləri, bənnaları, dülgərləri, silahsızları, özkəntoxuyanları (kişilər) boyaqçıları, xüsusən də xalçaçıları adla idi.





Geyim mədəniyyəti. Paltar tikilən parçaların, demək olar ki, əksəriyyəti yundan ibarət idi. Bunlardan qayçıkəsməz (qalın) "lüpürdü" (samani, limon rəngində olan gəlin paltarı) tikilərdi. "Hacımənəbax", "gülməxmər" və s. parça növlərini qeyd etmək olar. Vaxtilə gəlin üçün "qutu çarşabı", "lentli çarşab", "südlüsıyıq örpək" (qırış-qırış), "düşbərə", "zəkiyyə" örpəkləri aparılardı.

Orta hissəsi gen, ayaqdan büzməli iplə bağlanan çaxçuru orta yaşlı qadınlar, iki balaq gen tumanları isə yaşlı qadınlar geyinərdi. Cavan qızlar, gəlinliklər yastı daban, uzunboğaz, nisbətən orta yaşlı qadınlar isə dabansız və üstü bəzəkli başmaqdan istifadə edərdilər.

Kişilər isə qara satindən qolları "filgili", yəni dirsəyə qədər sıx (yapışıq), dirsəkdən aşağı isə gen olan paltar geyərdilər. Kişi paltarlarının ətəkləri uzun biçilərdi. Bu cür paltardan daha çox yaşlı kişilər istifadə edərdi. Qadın paltarlarının yaxası açıq olardı. Kişi tumanbağlarının ucuna "gülcə"(qotaz) tikilərdi. Kişi alt paltarları ağ bezdən, köynəklər isə yanyaxa tikilərdi. Kişi başmaqları dabanlı, pəncələri enli olardı.

Azərbaycanın hər yerində olduğu kimi Abşeronda, o cümlədən Qala kəndində kürk, xüsusən də sarı rəngli kürklər çox yüksək qiymətləndirilirdi. Kürkün qolu uzun, yuxarıdan enli, aşağıdan isə dar olurdu. Kürkün qolunu geyməz, sadəcə olaraq onu çiynə salardılar. Kürk həmişə bahalı,ağayana geyim sayılırdı.

Mətbəx. Məişətdə istilik və xörəkbişirmə vasitələri kimi təndirdən başqa kürsü, ocaq, sac kürədən istifadə olunurdu. Çörək kənddə bişirilirdi. Bu məqsədlə kəndin qırağında olan sarı gildən gətirər, ona saman qataraq sulayıb palçıq tutulardı. Sonra təndiri çin-çin düzəldərdilər.Aşağıdan diametri 80-100 sm olan təndir, yuxarı qalxdıqca daralardı. Hündürlüyü 100-120 sm təşkil edirdi.

Qalalıların mətbəxi də Abşeron mətbəxi kimi səciyyəvi olan xörək və bişmələrlə zəngin olub. Bunlardan bozbaşı, gürzəni, koşaxəşili(bərk xəşil), çobanaşını, qutabı, suvan halvasını, kudubəşiri, parça döşəməni, südlü sıyığı, yağlı qoğalı, fətiri (mayasız xəmirdən), yaymanı, təndir çörəyini və s. qeyd etmək olar.

Azərbaycanın hər yerində olduğu kimi, Abşeronda, o cümlədən Bakıda da əsrlər boyu həyat tərzimiz üçün səciyyəvi olan, min illər boyu məişətimizi, təsərrüfat maddi və mənəvi mədəniyyətimizi səciyyələndirən, zaman-zaman təkmilləşən, billurlaşan sənət və peşə sahələrimiz, o cümlədən dulusçuluq, tuluqçuluq, çəlləkçilik, şamtökməçilik, şamdan və fənər qayırmaçılıq, faytonçuluq, dəmirçilik, misgərlik, daşçıxarma, daşyonma, palçıqçılıq, bəzzazçılıq, boyaqçılıq, papaqçılıq, cız-bızçılıq, çörəkçi, lavaşçı, şirniyyatçı, halvaçı, pitiçi, xırdavatçı, çapıqçı, kəlləpaz, həlimaşı və s. onlarla, yüzlərlə sənət və peşə sahələri müxtəlif obyektiv və subyektiv səbəblər üzündən sovet rejimi dövründə, ötən əsrin 30-40-cı illərində təqib və təzyiqlər nəticəsində sıradan çıxdı, unuduldu, unutduruldu. Tariximizin və milli-mədəni irsimizin bu tip zəngin peşə və sənət sahələrinin bir qisminin bərpasına, dirçəldilməsinə zərurət yaranıb. Bu istiqamətdə elmi araşdırmalar aparılmalı, mədəni irs abidələri bərpa və konservasiya olunmalı, orta əsrlər dövrünün etno-tarixi mühitinə, ilkinliyinə qaytarılmaqla tarixi-memarlıq abidələrimiz, maddi-mənəvi dəyərlərimiz geniş təbliğ olunmalıdır. Azərbaycanın gündən-günə inkişaf etdiyi bir dövrdə, dünyanın hər yerindən turistlərin ölkəmizə axın-axın səfər etdiyi bir vaxtda mədəni irsimizin tərkib hissəsi olan tarixi-memarlıq abidələrinin turizm istiqamətində istifadə olunması zərurətə çevrilir.

Dünya xalqlarında olduğu kimi, Azərbaycan xalqının bir çox oyun əyləncələri təbiətlə mübarizə, əkinçilik və maldarlıqla əlaqədar olaraq meydana gəlib. Keçmişdə olduğu kimi, bu gün də Abşeronda uşaq və yeniyetmələrin əyləndiyi çoxlu xalq oyunları, əyləncələri, tarixi-etnoqrafik və folklor baxımından diqqəti cəlb edir. Bu cür oyun və əyləncələr Qalada geniş yayılıb. Bunlardan "qaçaq-qaçaq"(gizlənpaç),""fır-fıra", "dirədöymə", "pulatutdu","künctutdu","çilədi", "daşdabaş","çərpələng uçurmaq" və s. geniş yayılıb.

Azərbaycanın tarix, etnoqrafiya, tarixi-memarlıq tikililəri ilə maraq kəsb edən Abşeron yarımadası, tarixilik və memarlıq cəhətdən xüsusi elmi əhəmiyyətə malik tarixi Qala kəndinin abidələrinin, adət və ənənələrinin öyrənilməsi, elmi cəhətdən araşdırılması mühüm əhəmiyyət kəsb etməklə, mədəni irs, maddi və mənəvi dəyərlərimizin təbliği məqsədilə dünya turizmində müvəffəqiyyətlə tətbiq olunan etnoturizm, ekoturizm, aqroturizm kimi sahələrin bu tarixi məkanda inkişaf etdirilməsi, Azərbaycanda gündən-günə inkişaf edən turizm infrastukturunun təşəkkül tapması Abşeron yarımadasında bu sahədə daha böyük uğurlara imza atmış olardı.

***Elxan MƏMMƏDOV***
*Tarixçi*

# Şəhərətrafı yollarda "piyada zebraları" bərbad günə düşüb...

**Bəzən yollarda piyada zolaqlarının silinməsi hallarının ilə rastlaşırıq. Belə olan halda yalnız nişanların olması sürücülərə kifayət etmir, zolaqların silinməsini görmürlər. Bütün bu kimi hallar isə piyadaların hərəkətində çətinlik yaradır. Xüsusilə də məktəb ətrafındakı yollarda piyada zolaqlarının silinməsi şagirdlər üçün təhlükə yaradır və onların hərəkətini çətinləşdirir.**



## *Azər Allahverənov: "Həmin ərazilərdə yaşayan sakinlər belə hallarla bağlı aidiyyəti qurumlara tez məlumat verməlidirlər"*

Artıq neçə vaxtdır şagirdlər tətildədirlər. Ancaq nəzərə almaq lazımdır ki, 2 aydan sonra dərslər yenidən başlayacaq.

Bakıda avtomobil yollarında piyada zolaqlarının silinməsi sürücülərin narazılığına səbəb olur. Müşahidələr göstərir ki, paytaxtın mərkəzi hissəsi ilə müqayisədə ətraf ərazilərdə silinmiş piyada zolaqları daha çoxdur. Mərkəzdə belə hallar olanda tez həmin zolaqlar rənglənir. Bakının ətrafında isə bir çox avtomobil yolunda yol örtüyündəki piyada zolaqları silinib, bəziləri isə ümumiyyətlə görünmür. Bu da yollarda bədbəxt hadisələrin baş verməsinə və sürücülərin cərimələnməsinə səbəb olur. Suraxanı, Sabunçu rayonları ərazisində rəngi silinmiş piyada zolaqları çoxdur. O üzdən, sözügedən problemi necə həll etmək olar? Niyə bu zolaqlar vaxtında rənglənmir?

Məsələyə münasibət bildirən nəqliyyat sahəsi üzrə ekspert Azər Allahverənovun sözlərinə görə, rəngi solan və ya silinən piyada zolaqları məsələsi çox aktualdır: "Bu gün nəinki Bakıətrafı qəsəbələrdə, hətta şəhərin özündə belə, həmin zolaqların silindiyinin şahidi oluruq. Düzdür, mərkəzdə belə zolaqlar tez rənglənir, amma ətraf ərazilərdə biz bunu görmürük. Bakıətrafı qəsəbələrdə bu məsələ bir qədər diqqətdən kənarda qalıb. Məsələ ondadır ki, şəhərdə aidiyyəti qurumların nümayəndələrinin çox olması daim bu məsələnin diqqət mərkəzində qalmasına öz təsirini göstərir. Bir qədər ətraf ərazilərdə isə piyada zolaqlarının vaxtında rənglənməsinə etinasız yanaşılır. Nəticədə belə halların sayı artır. Belə halları necə aradan qaldırmaq olar? Hesab edirəm ki, həmin ərazilərdə yaşayan sakinlər belə hallarla bağlı aidiyyəti qurumlara tez məlumat verməlidirlər. Bunu təkcə sakinlər yox, eyni zamanda, həmin ərazidə yerləşən inzibati mərkəzlərə rəhbərlik edən şəxslər də etməlidirlər. Ən azından, Bakı Nəqliyyat Agentliyinə, Dövlət Yol Polisinə məlumat verə bilərlər. Həmin qurumlar da, öz növbəsində, silinən piyada zolaqları ilə bağlı zəruri tədbirlər görsünlər.

*"İctimai nəzarət təkmil şəkildə qurularsa, silinmiş piyada zolaqlarının sayı azalacaq"*

Mən özüm zaman-zaman belə silinmiş piyada zolaqları gördükdə şəklini çəkib aidiyyəti qurumlara təqdim edirəm. Onlar da operativ şəkildə zəruri rənglənmə işlərini həyata keçirirlər. Yəni, bax, bu nöqteyi-nəzərdən ictimai nəzarət təkmil şəkildə qurularsa, belə silinmiş piyada zolaqlarının sayı azalacaq. Bələdiyyələr də bu işdə fəal ola bilərlər. O üzdən, problemin həllinə kompleks yanaşma olmalıdır".

***Vidadi ORDAHALLI***

# Azərbaycanda adambaşına düşən ÜDM-in həcmi 3228 manat oldu

**Bu ilin yanvar-iyun aylarında Azərbaycanda əhalinin hər nəfərinə düşən ÜDM-in həcmi 3.228,1 manat təşkil edib.**



"Trend"in məlumatına görə, Dövlət Statistika Komitəsinin hesabatında qeyd olunur ki, bu göstərici ötən ilin analoji dövrü ilə müqayisədə 1,5 faiz çoxdur. Belə ki, 2018-ci ilin ilk yarısında ölkədə adambaşına düşən ÜDM-in artım tempi əvvəlki ilin eyni dövrünə nisbətən cəmi 0,4 faiz təşkil edib.

**Qeyd edək ki, hesabat dövründə Azərbaycanda 37,8 mlrd. manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,4 faiz çox ÜDM istehsal edilib.**

# "Bakcell" sosial şəbəkələrdə cavablandırılmış müraciətlərə görə ən yüksək nəticə göstərməkdə davam edir

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkəti abunəçilər tərəfindən "Facebook" üzərindən göndərilən müraciətlərin effektiv cavablandırılmasına görə növbəti dəfə "SociallyDevoted" sertifikatına layiq görülüb.**




Böyük şirkətlərin sosial şəbəkələrdəki fəaliyyətinin monitorinqini həyata keçirən beynəlxalq "Socialbakers" şirkəti 2019-cu ilin II rübündə daxil olan sorğuların "Bakcell" tərəfindən 100% cavablandırıldığını qeyd edib. Qeyd edək ki, "Bakcell" cari ilin I rübündə də ən yüksək nəticə göstərərək "SociallyDevoted" sertifikatına layiq görülüb. "Bakcell" şirkəti son bir neçə ildə abunəçi müraciətlərini 100% cavablandıraraq ən yüksək nəticəyə nail olur.

Yüksək keyfiyyətli xidmətin göstərilməsi və müştəri məmnuniyyəti "Bakcell"in fəaliyyətinin prioritet istiqamətlərindəndir. Sosial şəbəkələr məhsul və xidmətlər haqqında məlumatların geniş abunəçi bazasına daha effektiv şəkildə çatdırılması və abunəçilərin suallarının cavablandırılması baxımından "Bakcell"in vacib kommunikasiya vasitələrindən biridir.

## Elan

Şəki rayonu, Küdürlü kənd sakini Paşayeva Xanım Qafar qızının və ailə üzvlərinin adına verilmiş JN: 0035 saylı torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Baki şəhəri, Əzizbəyov rayonu, Mərdəkan qəsəbəsində istifadədə olan 0,03317 ha torpaq sahəsində yerləşən 52.0 kv.m. yaşayış, 152,83 kv.m. köməkçi sahədən ibarət 1013V nömrəli bağ evinə aid, Əhmədov Yasin Elman oğlunun adına verilmiş Daşınmaz əmlakın dövlət reyestrindən çıxarış itdiyi üçün etibarsız sayılır.

Abbasov Azər Şəmi oğluna Nizami Rayon Hərbi Komissarlığı tərəfindən verilmiş hərbi bilet və Əfqanıstan müharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, 3-cü mikrorayon, H.B.Əliyev küçəsində yerləşən, ümumi sahəsi 41.37 kv. m. olan 2 otaqlı evin - ev 4, mənzil 89, Həsənova Müşkünaz Bilal qızının adına verilmiş çıxarışı itdiyi üçün etibarsız sayılır.

Əsgərova Tahirə Vahab qızının adına, Bakı şəhəri, B.Nuriyev küçəsi, ev 3, mənzil 42 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Şahmərdanova Urxan Vasif oğlunun adına 1997-ci ildə verilmiş M/V 000058 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Qurbanov Əliyusif Qurban oğlunun adına, Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi qəsəbəsi, Bakıxanov küçəsi, ev 1 ünvanının sənədləri itdiyi üçün etibarsız sayılır.



# Bakıda ərəb turistin küçədə qadını döyməsilə bağlı yayılan məlumat yalan çıxdı...

**Bakı şəhər Baş Polis İdarəsi sosial şəbəkələrdə Bakıda ərəb turistin qadını döyməsi ilə bağlı yayılan videomateriallа bağlı açıqlama yayıb.**

İdarənin mətbuat xidmətinin rəhbəri, polis mayoru Elşad Hacıyev "Trend"ə açıqlamasında bildirib ki, sosial şəbəkədə Nərimanov rayonunda ərəb turistin küçədə qadını döyməsi ilə bağlı yayılan məlumat RPİ-də araşdırılıb: "Dəqiqləşdirilmədən yayılan videomateriallarda deyilənlər həqiqəti əks etdirmir, həmin yerdə ərəb olmayıb, sadəcə Azərbaycan vətəndaşları arasında telefonla yüksək səslə danışıq müşahidə olunub. Ərazi üzrə Nərimanov RPİ əməkdaşları yaxınlaşaraq vətəndaşları nizam-intizama dəvət edib".

№ 126 (4024) ■ Qiyməti: 40 qəpik

BAKI XƏBƏR

18 İYUL 2019-cu il

www.baki-xeber.com

# "Rozetta daşı" qədim heroqliflərin sirrini açacaq



**Fransız imperatoru Napoleon Bonapartın əsgərlərinin 1799-cu il iyulun 15-də Misirin Rəşid qəsəbəsində qazıntı apararkən tapdıqları daş dünya tarixinin ən böyük sirrini açmağa kömək edəcək.**

Milli.Az AZƏRTAC-a istinadən bildirir ki, hazırda Londondakı "British Museum"da saxlanılan bu qədim kitabə ziyarətçilərin böyük marağına səbəb olub. Misir çarı V Ptolemeyin hakimiyyətinin birinci ili şərəfində kahinlər şurası tərəfindən yazılan və məbəddə saxlanılan bu daşın üzərindəki mətndə onların hökmdara sədaqəti ifadə olunub. Bu cür yazılı kitabələrdən biri də Misirin Memfis bölgəsindəki məbədə göndərilib. Bəs ilk baxışdan sadə olan bu mətn nədən arxeoloqların böyük marağına səbəb olub? Bunun səbəbi "Rozetta daşı"nın üzərində dünyanın ən qədim çoxdilli mətninin olmasıdır. Ağırlığı 760 kq və eni 72 sm olan bu kitabə qranitdən hazırlanıb. Misir xalqının, kahinlərin və əyanların onu rahat oxuması üçün üç fərqli dildə yazılan mətn heroqliflərin sirrini açmağa çalışan paleoqraflar üçün ən əlverişli imkandır. Eramızdan əvvəl 196-cı ildə yazılan bu kitabənin üzərində eyni mətn demotik (həmin dövrdə Misirdə gündəlik istifadə edilən dil), antik yunan (hökmdarların dili) və heroqliflə yazılıb. Bir hissəsi qırılmış daşın üzərində 14 heroqlif, 32 sətir demotik və 53 sətir də antik yunan yazısı var. Alimlərin tədqiqatlarına görə, heroqlif yazısı eramızın IV əsrindən sonra istifadə olunmayıb və bu əlifba ilə bağlı məlumatlar tədricən yox olub. "Rozetta daşı" üzərində antik yunan hərflərini oxuyan mütəxəssislər bu üsulla heroqliflərin sirrini açmağa çalışırlar. İngilis fiziki Tomas Yanq birinci heroqliflərin Ptolemeyin adı ilə bağlı olduğunu tapan ilk mütəxəssis olub. Sonradan fransız alimi Jan-Fransua Şampolli-on heroqliflərin Misirin gündəlik kıptı dilindəki səsləri göstərdiyini kəşf edib və onların sirrini böyük həcmdə açıb. Napoleonun Misirdə məğlub olmasından sonra 1801-ci ildə imzalanan İsgəndəriyyə müqaviləsinin şərtlərinə görə, fransızların bu ölkədə tapdıqları qədim abidələr ingilislərin nəzarətinə keçib və "Rozetta daşı" 1802-ci ildə İngiltərənin Portsmut limanına gətirilib və Kral III Georqun əmri ilə "British Museum"a verilib.

## Alimlər əl və bilək iflicini müalicə edə biliblər

Avstraliyalı tədqiqatçılar iflic vurmuş pasiyentlərin sinir sistemi üzərində uğurlu əməliyyat apardılar. "AZƏRTAC" bildirir ki, bu pasiyentlər əməliyyatdan sonra əllərini və biləklərini yenidən hərəkət etdirə bilirlər. Əvvəllər praktiki olaraq, köməksiz vəziyyətdə olan insanlar indi özləri müstəqil qidalanmaq, kompüter arxasında işləmək, yemək hazırlamaq, hətta makiyaj etmək imkanına malikdirlər.

## Puşkinin əsərinin ilk nəşri yarım milyona satıldı

Məşhur rus şair və yazıçısı Aleksandr Puşkinin "Yevgeni Onegin" romanının ilk nəşri "Shristie's" hərrac evinin Londonda keçirdiyi auksionda 467,3 min funt sterlinqə (580 min dollara) satılıb. "Qafqazinfo" xəbər verir ki, bu barədə "Shristie's" hərrac evinin nümayəndələri "RİA Novosti"yə danışıb. Onların sözlərinə görə, satış evində iyulun 9-da keçirilən "Rus ədəbiyyatının qızıl əsəri" hərracında ümumilikdə 2,27 milyon funt sterlinq gəlir əldə edilib. Qeyd edək ki, "Yevgeni Onegin" romanı ilk dəfə Azərbaycan dilinə Xalq şairi Səməd Vurğun tərəfindən tərcümə edilib.



# Əfqanıstanın zəhər biznesi

**İlan, əqrəb və digər zəhərli heyvanlar bəziləri üçün gəlirli biznesə çevrilib. Market araşdırmaları qruplarına istinadən bildirilir ki, zəhər istehsal edən şirkətlərin sayı azalır, zəhərə tələbat isə artır. Əfqanıstanın Herat vilayətində iki iş adamı zəhər istehsal edilən laboratoriya açıb.**

Onlar 27 növ zəhərli ilan və çox sayda əqrəbdən aldırları zəhəri ölkə boyu satışa çıxarır. "Amerikanın səsi" bildirir ki, ilan və əqrəb zəhərindən tibbdə dərman kimi istifadə edilir. İlan və əqrəb zəhəri həm də insanı öldürə bilir. Lakin tibb üzrə mütəxəssislər zəhərdən eyni zamanda həyat qurtaran dərman və müalicə üçün istifadə edilə biləcəyini deyirlər. Bio-kimyaçı - İmmunoloq, professor Maks Qoyffon: "Zəhər böyük potensiala malikdir. İlan və ya əqrəb zəhərində yüzlərlə müxtəlif toksin var. Lakin biz bunun yalnız bir və ya iki faizini bilirik. Əqrəbin 2 minə qədər növü var və onlardakı 2 min toksini yüzə vuranda siz milyonlarla maddə üzərində təhlil apara bilərsiniz". Zəhər toksinlərindən zəhərə qarşı istifadə edilir ki, ekspertlər ilan və ya əqrəb vurmasından yalnız bu toksinlərin köməyi olduğunu deyir. Lakin təhlilçilər zəhərə tələbatın getdikcə artdığını, istehsalın isə azaldığını deyir. Əfqanıstanda yaşayan iki iş adamı bu sənayeni inkişaf etdirməyə çalışır. Onlar zəhər əldə etmək üçün xüsusi bir laboratoriya inşa edib. Bu iş adamları bir kq ilan zəhərinin dəyərinin marketdə bir milyon dollardan çox olduğunu deyir. Nasir Əhməd Əzizi: "Biz müxtəlif bölgələrdən ilan və əqrəblərin qaçaqmalçılıq yolu ilə Əfqanıstandan kənara çıxarıldığını bilirik. Ona görə də biz qaçaqmalçılığın qarşısını almaq və yüksək keyfiyyətli zəhər əldə etmək üçün burada ferma açmaq qərarına gəldik. Çünki, Əfqanıstan zəhəri yüksək keyfiyyətlidir". Əkbər Dərviş: "Son altı ayda bzi dörd yüz qramla altı yüz qram arasında zəhər əldə etmişik. Biz Əfqanıstan hökumətinin bizə beynəlxalq markətə çıxmağa yardım edəcəyinə ümid edirik". Əzizi və Dərviş Əfqanıstanda mühitin ilan və əqrəblər üçün çox gözəl olduğunu, onların zəhər biznesinin inkişafı üçün ideal bir yer olduğunu deyirlər. Belə görünür, zəhərə ehtiyac çoxdur. Ümumdünya Səhiyyə Təşkilatına istinadən bildirilir ki, hər il dünya boyu beş milyondan çox insanı ilan vurur və onlardan təxminən iki milyonu zəhərli ilanlar tərəfindən vurulur.

*Hazırladı: Ramil QULİYEV*





**Qoç** - Günün ilk yarısında xırda problemlər nigaranlıq yaradacaq. Çoxdan bəri həllini tələb edən məsələ yenidən gündəmdədir. Tələsik davranmayın, düşünülməmiş qərarlar verməyin. Axşam saatlarında planlar qəflətən dəyişə bilər.



**Buğa** - Emosional, gərgin gündür. Şəxsi planlarınızı reallaşdırmaq üçün müstəqil çalışaraq tək qala bilməyəcəksiniz. Ailə üzvlərinin yardım istəklərinə soyuq yanaşsanız, münaqişə istisna deyil.



**Əkizlər** - Bilik və bacarıqlarınızı tam nümayiş etdirin. Ətrafınızdakı insanlar sizdən təşəbbüskarlıq, təşkilatçılıq bacarığının izharını və ümumi məqsədlərə çatmaq üçün pozitiv davranış gözləyirlər.



**Xərçəng** - Narahatlıq və təlaşa qapılaraq fəsadları ağır ola biləcək səhvlərə yol verməyin. Günün ikinci yarısında münasibətlərdəki problemləri aradan qaldırmaq üçün təşəbbüskar siz olun.



**Şir** - Emosiyalarınız artacaq, hissləriniz aktivləşəcək. Öz mövqeyini absolyut həqiqət sayan insanlarla ehtiyatlı davranın. Yalnız peşəkar fəaliyyət müstəvisində mübahisələr etmək olar.



**Qız** - Eyni vaxtda bir neçə işə başlamayın. Yalnız təcili həll tələb edən, cari məsələlərlə məşğul olun. Gecikmə, təxirəsalma, çalışdığınız insanların qeyri-dəqiqliyi istisna deyil. Anlaşılmazlıq münaqişə vəziyyəti yarada bilər.



**Tərəzi** - Hadisələrə süni təkan verməyin. Spontan olayların məcrasında hərəkət etməyin. Bununla yanaşı, situasiyanı nəzarətdə saxlayın. Yalnız öz maraqlarınızı düşünərək başqalarının mənafelərini kobud şəkildə qulaqardına vurmayın.



**Əqrəb** - Qarşınıza konkret məqsəd qoyubsunuzsa, plana uyğun hərəkət edin. Qətiyyətli, iradəli və əzmkar olun. Dürüst kursla irəlilədiyinizə əmin olun. Peşəkarlığınızı nümayiş etdirin.



**Oxatan** - Tələskənliyə yol verməyin, aramla çalışın. Qərarların qəbulunda müstəqil olun. Müəyyən addımları ətrafındakı insanlarla razılaşdırmalısınızsa, emosional amilləri mütləq nəzərə alın.



**Oğlaq** - Pozitiv olun, bədbin fikirlərdən uzaq durun. Tənbəllik etməyin. Ailə qayğıları və məişət işlərini ön plana çıxararaq bilavasitə məşğul olmanız gərəkən məsələləri unutmayın. Alış-veriş üçün münasib zamandır.



**Dolça** - Daşınmaz əmlak və ərzaqla bağlı əməliyyatlar uğurlu nəticə verə bilər. Əldə etdiyiniz nailiyyətlərinizin ətrafınızdakı insanlar tərəfindən təqdirini gözləməyin. Kimsəyə fikir vermədən irəliləyin.



**Balıqlar** - Rahatlığa can ataraq qarşınızdakı sədləri və maneələri görməzdən gəlməyin. Çətinliklər həllini tələb edir. Yaşam arealının rekonstruksiyası üçün əlverişli zamandır. Psixoloji amillərə diqqətli yanaşın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.